Bu bir xalq qəzetidi
ƏDALƏT

## Parlamentdə koronavirusla bağlı müzakirələr aparılacaq



**Milli Məclisdə Azərbaycanda koronavirus infeksiyası ilə bağlı dinləmə keçiriləcək.**

Adalet.az xəbər verir ki, bununla bağlı məsələ Səhiyyə komitəsinin oktyabrın 7-də keçiriləcək iclasının gündəliyinə salınıb.

İclasda koronavirus əleyhinə vaksinasiya və görülən digər tədbirlər barədə də müzakirələr aparılacaq.

## Kərim Vəliyev Hava Qüvvələrinin Mərkəzi Komanda Məntəqəsində olub



**Müdafiə nazirinin tapşırığına əsasən Müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-leytenant Kərim Vəliyev Hərbi Hava Qüvvələrinin (HHQ) Mərkəzi Komanda Məntəqəsində (MKM), o cümlədən Rabitə, İnformasiya Texnologiyaları və Kibertəhlükəsizlik Baş İdarəsi Mərkəzi Rabitə Qovşağının Peyk Rabitəsi İdarəetmə Mərkəzində olub.**

Müdafiə Nazirliyindən Adalet.az-a verilən məlumata görə, müdafiə nazirinin müavini - HHQ komandanı general-leytenant Ramiz Tahirov müasir avtomatlaşdırılmış idarəetmə sistemləri ilə təchiz edilmiş komanda məntəqəsinin fəaliyyəti barədə Baş Qərargah rəisinə məruzə edib. Bildirilib ki, ən yeni texnoloji avadanlıqla təchiz edilmiş MKM qarşıya qoyulan döyüş tapşırıqlarının HHQ tərəfindən operativ icrasını təmin edir.

Qeyd edilib ki, Vətən müharibəsi dövründə komanda məntəqəsindən döyüşlərin fasiləsiz idarə olunması və ordu aviasiyasının döyüş tapşırıqlarının uğurlu icrasına nəzarət həyata keçirilib. Bu da Azərbaycan HHQ-nin döyüş əməliyyatları boyunca düşmən üzərində hava üstünlüyünün saxlanılmasını təmin edib.

Sonra Baş Qərargah rəisi Peyk Rabitəsi İdarəetmə Mərkəzində olub. Bildirilib ki, təhlükəsizlik tədbirləri nəzərə alınmaqla peyk rabitə sistemi əsasən "Azərkosmos" ASC-nin peyki üzərindən fəaliyyət göstərir. Baş Qərargah rəisi azad olunmuş ərazilərimizdə yerləşən qoşunlarımızın dayanıqlı və təhlükəsiz rabitəsinin təmin edilməsi ilə bağlı Müdafiə nazirinin müvafiq tapşırıqlarını aidiyyəti üzrə vəzifəli şəxslərə çatdırıb.

## 28 May və 18 Oktyabr hər il bayram kimi qeyd ediləcək

**Azərbaycanda 28 May Müstəqillik Günü və 18 Oktyabr Müstəqilliyin Bərpası Günü hər il bayram kimi qeyd edilsin.**

Adalet.az xəbər verir ki, bu barədə "Müstəqillik Günü haqqında" qanun layihəsində əksini tapıb. Qanun layihəsi Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin iclasında müzakirə olunacaq. Qeyd edək ki, hazırda 28 May - Respublika Günü kimi qeyd olunur və qeyri iş günüdür. 18 Oktyabr isə Müstəqillik Günü kimi qeyd olunur və bu gün rəsmi iş günü hesab olunur. Dəyişiklikdən sonra hər iki gün qeyri-iş günü hesab olunacaq.

## Azərbaycanda 12-15 yaşlı yeniyetmələrə vaksin vurulacaq



**Azərbaycanda 12-15 yaşlı yeniyetmələrə vaksin vurulacaq.**

Səhiyyə Nazirliyindən Adalet.az-a verilən məlumata görə, "Azərbaycan Respublikasında COVID-19 xəstəliyi əleyhinə 2021-2022-ci illər üçün Vaksinasiya Strategiyası"na uyğun olaraq ölkə üzrə peyvəndlənmə prosesi davam edir. Qeyd olunur ki, cari epidemioloji vəziyyəti, Avropa Dərman Agentliyi, Amerika Ərzaq və Dərman Administrasiyasının yeniyetmələrə mRNT Pfizer ("Comirnaty") peyvəndinin vurulmasına rəsmi icazələrini nəzərə alaraq Səhiyyə Nazirliyinin Elmi-Tibbi Şurası qərar qəbul edib: Müvafiq tibbi göstərişlərə və hər iki valideynin razılığına əsasən 12-15 yaşı tamam olmuş yeniyetmələrə COVID-19 xəstəliyi əleyhinə mRNT Pfizer ("Comirnaty") peyvəndi vurula bilər. 12-15 yaşlı yeniyetmələrin vaksinasiyası mərkəzləşdirilmiş şəkildə Bakı Sağlamlıq Mərkəzində aparılacaq.

## Zakir Həsənov Hulusi Akarla görüşdü



**Azərbaycanın müdafiə naziri general-polkovnik Zakir Həsənov türkiyəli həmkarı Hulusi Akarla görüşüb.**

Adalet.az xəbər verir ki, görüş Gürcüstanın Kaxeti bölgəsində üç ölkənin müdafiə nazirlərinin üçtərəfli görüşü çərçivəsində baş tutub.

Görüşdə müdafiə sahəsində Azərbaycan-Türkiyə əməkdaşlığı və regionda təhlükəsizlik məsələləri ətrafında fikir mübadiləsi aparılıb.

## Bu tarixdə Bakı, Sumqayıt və Abşeronda pensiyalar ödəniləcək

**Oktyabrın 8-də Bakı və Sumqayıt şəhərləri, eləcə də Abşeron rayonu üzrə pensiyaların ödənişinin həyata keçirilməsi nəzərdə tutulub.**

Adalet.az-ın məlumatına görə, bu barədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondu məlumat yayıb.



Güzəştli şərtlərlə pensiya hüququna malik pensiyaçılar istisnadır.

Qeyd edək ki, 2021-ci il Sentyabrın 1-i vəziyyətinə Dövlət Sosial Müdafiə Fondunda 1 milyon 214,1 min (ötən ilin iyulun 1-i vəziyyətinə 1257,4 min) pensiyaçı qeydiyyatda olub ki, bu da ölkə əhalisinin 12,1 faizini təşkil edir. Onların 58,8 faizi yaşa, 29,5 faizi əlilliyə, 11,7 faizi isə ailə başçısını itirməyə görə pensiya alır.

**Təyin olunmuş aylıq pensiyaların orta məbləği ötən ilin müvafiq dövrü ilə müqayisədə 10,4 faiz, cari ilin əvvəli ilə müqayisədə isə 8,8 faiz artaraq 328,8 manat təşkil edib və orta aylıq əmək haqqının 45,4 faizinə bərabər olub.**

Bu bir xalq qəzetidi
www.adalet.az
ƏDALƏT
Qurucusu: Adil Minbaşıyev
Gündəlik hüquq qəzeti
Qəzet 1990-cı ilin iyulundan çıxır
№ 84 (5916) 7 oktyabr 2021-ci il
Qiyməti 30 qəpik

## Bir neçə məktəbdə koronavirus aşkarlanıb: Beş sinif bağlanıb



**Bakıda iki məktəbin şagirdləri arasında COVID-19-a yoluxma faktları olduğundan bir neçə sinif distant təhsilə keçib.**

"Report"un əldə etdiyi məlumata görə, Tahir Həsənov adına 23 nömrəli məktəbin üç sinfində şagirdlərin COVID-19 infeksiyasına yoluxması təsdiq olunduğu üçün həmin sinifdə əyani tədris prosesi 14 gün müddətində distant təhsillə əvəz olunub.

Analoji hadisə Baku-Oxford School-da da qeydə alınıb. Belə ki, həmin təhsil ocağında da yoluxma səbəbindən bir sinif distant təhsilə keçib.

Xatırladaq ki, bundan əvvəl 162 nömrəli tam orta məktəbin 8 ç sinfində üç şagirdin COVID-19 infeksiyasına yoluxması təsdiq olunduğu üçün həmin sinifdə əyani tədris prosesi 14 gün müddətində distant təhsillə əvəz olunub.

Qeyd edək ki, hər üç məktəbdə əyani təhsil davam edir.

# "Biz Avropa İttifaqına dürüst vasitəçi kimi güvənirik"



Bax:səh-2

## Azərbaycan və Türkiyənin İrandakı səfirləri görüşdü



**Azərbaycan və Türkiyənin İrandakı səfirləri Əli Əlizadə ilə Dərya Örs arasında görüş olub.**

Adalet.az xəbər verir ki, bu barədə Azərbaycan səfiri Əli Əlizadə Tvitter səhifəsində yazıb.

Qeyd edək ki, Prezident İlham Əliyevin avqustun 7-də imzaladığı sərəncamı ilə Əli Əlizadə Azərbaycanın İrandakı səfiri təyin edilib.

## Türkiyə-Azərbaycan birgə təlimlərinin məşqlərinə başlanıldı



**Naxçıvanda keçiriləcək Türkiyə və Azərbaycan hərbçilərinin "Sarsılmaz Qardaşlıq-2021" birgə təliminin növbəti məşqləri keçirilib.**

Adalet.az xəbər verir ki, bu barədə Türkiyə Milli Müdafiə Nazirliyi rəsmi tviter səhifəsində paylaşım edib.

Nazirlikdən bildirilib ki, Türkiyə Silahlı Qüvvələrinin 3-cü Ordu Korpusu ilə Naxçıvanın Əlahiddə Ümumqoşun Ordusunun bölmələri Naxçıvanda keçiriləcək "Sarsılmaz Qardaşlıq-2021" təlimlərini məşqlərini uğurla həyata keçiriblər.

## AZAL Ermənistan ərazisi üzərində hava məkanından istifadə etməyə başlayıb



**Azərbaycan Hava Yolları (AZAL) aviaşirkəti Ermənistan ərazisi üzərində hava məkanından istifadə etməyə başlayıb**

AZAL-dan Adalet.az-a bildirilib ki, "Azərbaycan Hava Yolları" aviaşirkəti oktyabrın 6-dan etibarən Bakı-Naxçıvan-Bakı marşrutu üzrə daxili reysi yerinə yetirərkən Ermənistan ərazisi üzərində hava məkanından istifadə etməyə başlayıb:

"Bu addım Azərbaycanın regionda nəqliyyat kommunikasiyalarının açılmasına qəti hazır olduğunu nümayiş etdirir və bütün sərhəd dövlətlərin maraqlarına cavab verir.

Bakı-Naxçıvan-Bakı reysinin marşrutunun dəyişməsi həmçinin bu istiqamət üzrə uçuş vaxtının və uçuş zamanı yanacaq sərfiyyatının azalmasına gətirib çıxaracaq.

Beləliklə, bundan sonra AZAL bu reysi yerinə yetirərkən Ermənistan və İran üzərindən keçən dəhlizlər daxil olmaqla bütün mövcud hava dəhlizlərindən istifadə edə bilər".

## DYP bu sürücülərə növbəti dəfə xəbərdarlıq etdi

**Bakı Şəhər Baş Polis İdarəsinin Dövlət Yol Polisi (DYP) İdarəsi paytaxt ərazisində tez-tez zolağını dəyişən, manevr qaydalarını kobud şəkildə pozan sürücülərə bir daha xəbərdarlıq edib.**

Adalet.az xəbər verir ki, idarənin baş inspektoru, polis mayoru Araz Əsgərli paytaxt ərazisində xidmət zamanı, eləcə də xüsusilə texniki vasitələrlə aşkarlanan qayda pozuntularının içərisində tez-tez zolağını dəyişməklə manevr qaydalarını kobud şəkildə pozaraq, digər sürücülərə təhlükəli vəziyyət yaradan sürücülərə də tez-tez rast gəldiyini bildirib. O qeyd edib ki, bu, onu göstərir ki, sürücülər gün ərzində, xüsusi ilə günün pik saatlarında müəyyən məsafəni daha qısa zaman ərzində qət etmək üçün yol hərəkəti qaydalarını kobud şəkildə pozurlar: "Belə ki, "Yol Hərəkəti Haqqında Qanun"a görə, zolaqların tez-tez dəyişdirilməsi özü manevr qaydalarının pozulması kimi qiymətləndirilir. Eyni zamanda bu hərəkətlər digər sürücülər üçün, eləcə də yolu keçən piyalara da ciddi narahatçılıq yaradır. Bu cür əməlləri edən sürücülər bəzən hesab edirlər ki, onlar müəyyən müddət ərzində həmin məsafəni tez bir zamanda qət edəcəklər. Lakin paytaxt ərazisində sürücülər bilməlidirlər ki, tez-tez rastlaşdıqları yol ayrıcıları, işıqforlar var. Həmin sürücülər yolların hərəkət istiqamətlərini kobud şəkildə pozurlar. Sürücülərə bir daha xəbərdarlıq edirik ki, belə qayda pozuntularına yol verməsinlər. Bu, yolun ümumi nizamına təsir edən əsas amillərdən biridir. Həmçinin belə hallar zamanı tez-tez yol-nəqliyyat hadisələri də baş verir ki, bu da yollarda süni sıxlıqların yaranmasına səbəb olur". "Bu cür manevr qaydalarının kobud şəkildə pozulması əslində onları digər yerlərdə dayanmağa məcbur edir. Sürücülər nəzərə alsınlar ki, paytaxtın hər bir küçə və prospektində xüsusi texniki vasitələr quraşdırılıb. Yol polisi olmayanda da biz bu qayda pozuntuları aşkarlayıb, sürücülərin barəsində qanunamüvafiq tədbir görürük".

## İsmayıllıda sürücü DYP əməkdaşına hücum edib

**24 iyul 2021-ci il tarixdə İsmayıllı şəhəri, Nizami küçəsində rayon polis şöbəsinin əməkdaşına qarşı zor tətbiq olunması faktı ilə bağlı Cinayət Məcəlləsinin müvafiq maddəsi ilə cinayət işi başlanaraq rayon prokurorluğunda istintaq aparılıb.**

İsmayıllı rayon prokurorluğundan verilən məlumata görə, İsmayıllı Rayon Polis Şöbəsinin Dövlət Yol Polis Bölməsinin yol patrul xidməti inspektoru Bəhram Bəhramlı İsmayıllı şəhərində xidmət apardığı zaman BMW markalı, 90-MP-065 dövlət qeydiyyat nişanlı avtomobili qayda pozuntusuna yol verildiyinə görə dayandırdıqda sürücü Ruslan Maxsudov avtomobildən enərək Bəhram Bəhramlıya müqavimət göstərməklə onun xidməti geyim formasını cırıb, həmçinin əlləri ilə üz və boyun nahiyəsinə zərbələr endirərək dərəcəsi təyin edilməyən bədən xəsarətləri yetirib.

Ruslan Maxsudov Cinayət Məcəlləsinin 315-ci (hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmə) maddəsi ilə təqsirləndilirən şəxs qismində cəlb edilib.

Hazırda cinayət işi üzrə istintaq yekunlaşdırılaraq, baxılması üçün aidiyyəti üzrə rayon məhkəməsinə göndərilib.

## İranı narahat edən "güclər" - Regiondakı "sionistlər və terrorçular"dan Rusiyaya şikayət

Bax:səh-2

## Oxucuların nəzərinə

**Oktyabr ayından "Ədalət" qəzeti həftədə 3 dəfə - 2, 4, 6-cı günlər çap olunacaq.**

## Paşinyan: "Gərək qeyd-şərtsiz 7 rayonu qaytaraydıq"



**Litvada səfərdə olan Ermənistanın Baş naziri Nikol Paşinyan Qarabağ münaqişəsi və Şuşa ilə bağlı danışıb.**

Adalet.az xəbər verir ki, Paşinyan sözlərinə görə, müharibədən yayınmaq üçün torpaqları geri qaytarılmalı idi:

"Bu gün çoxları müharibəyə yol verməməkdən danışır. Bunun yeganə şərti ərazilərin qaytarılması idi. Odur ki, müharibəyə yol verməmək üçün biz əraziləri qaytarmalıydıq. Ən azı beş rayonu, o biri iki rayon məsələsi başqadır. Əslində isə gərək qeyd-şərtsiz 7 rayonu qaytaraydıq".

Şuşa barədə də danışan Paşinyan bildirib ki, bu şəhər ermənilərin nəzarəti altında olarkən heç bir yaşayış binası tikilməyib:

"Bu gün əlehdarlar Şuşa haqqında danışırlar. Bəs, 30 il ərzində Şuşada neçə yaşayış binası tikilib? Cavab verirəm, heç biri. Pulları olmayıb? Nədir bunun səbəbi? Məncə, cavabı aydındır".

## 192 ölkədə "Delta" ştamı yayıldı



**Yüksək yoluxuculuğu ilə fərqlənən koronavirusun "Delta" ştamı əhatə dairəsini genişləndirərək dünyanın 192 ölkəsində yayılıb.**

Adalet.az xəbər verir ki, bu barədə Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) açıqlamasında deyilir.

Ekspertlər "Alfa", "Beta", "Qamma" və "Delta" ştamlarını "narahatlıq doğuran variantlar"a aid ediblər.

## Üçüncü Dünya müharibəsi başlaya bilər



**ABŞ və Tayvanın hərəkətləri səbəbindən Üçüncü Dünya müharibəsi hər an başlaya bilər. Bu barədə Çin səlahiyyətlilərinin dəstəklədiyi "Global Times" qəzeti yazır.**

Oktyabrın 5-də Çin ada ölkəsinin hava sahəsinə onlarla hərbi təyyarə göndərib. Vaşinqtonla Tayvan arasındakı tərəfdaşlıq vəziyyətin praktiki olaraq "qarşıdurmanın astanasında manevr üçün bütün imkanların" itirilməsinə səbəb olub.

Çin xalqı ABŞ-la genişmiqyaslı müharibəyə dəstək verməyə hazırdır. Tayvana "odla oynamamaq" xəbərdarlığı edilir.

Böyük Britaniyanın "HMS Queen Elizabeth" gəmisi Filippin dənizində artıq iki ABŞ təyyarədaşıyan gəmisi ilə birgə təlimlər keçib. Manevrlərdə Yaponiyanın helikopter esminesi "JS Ise" də iştirak edib.

Keçirilmiş təlimlər Pekini qəzəbləndirib.

## GÜNÜN LƏTİFƏSİ



Vəli Xramçaylı yaxşı əhval-ruhiyyədədi.

Aqil müəllim:

**- Vəli, xeyir ola, genə kefin yuxarıdı?**

Vəli:

**- Hə qağa, cavan vaxtı fikirləşirdim ki, 50 yaşına çatana kimi, çoxlu pulum olar, iki mərtəbəli villam olar, xarici maşınım olar, ahıl vaxtımda kef çəkərəm. İndi sevinirəm, nə yaxşı heç olmasa arzumun birinə - 50 yaşa çata bilmişəm.**

## “Biz Avropa İttifaqına dürüst vasitəçi kimi güvənirik”



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 6-da Avropa İttifaqının ölkəmizdəki nümayəndəliyinin yeni təyin olunmuş rəhbəri Petr Mixalkonun etimadnaməsini qəbul edib.**

Adalet.az xəbər verir ki, dövlətimizin başçısını salamlayan səfir Petr Mixalko deyib:

"Zati-aliləri, hörmətli cənab Prezident İlham Əliyev.

Bu gün Avropa İttifaqı Şurasının prezidenti cənab Şarl Mişel və Avropa Komissiyasının prezidenti xanım Ursula fon der Lyayen tərəfindən imzalanmış və mənim Avropa İttifaqının Azərbaycan Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin olunmağımla bağlı etimadnaməni Sizə təqdim etməkdən şərəf hissi duyuram.

Son səfərlərdə, o cümlədən prezident Mişelin səfərində vurğulandığı kimi, Azərbaycan Avropa İttifaqı üçün önəmli tərəfdaşdır. Biz iqtisadiyyat, innovasiyalar, ticarət, enerji, investisiyalar, infrastruktur və əməkdaşlıq kimi mühüm sahələrdə güclü tərəfdaşlıq şəraitində birlikdə işləməyə hazırıq. Avropa İttifaqı ilə Azərbaycan arasında yeni hərtərəfli Sazişin imzalanması bizim əsas prioritetimiz olacaqdır. Biz əminik ki, bu, nəinki bizim ikitərəfli əməkdaşlığımızın genişləndirilməsinə kömək edəcək, eyni zamanda, Azərbaycan iqtisadiyyatının daha da güclənməsinə xidmət edərək onun çiçəklənməsi və şaxələnməsini artıracaq.

Avropa İttifaqı "Şərq tərəfdaşlığı" Proqramı çərçivəsində sabit, təhlükəsiz və çiçəklənən Cənubi Qafqazın olmasında maraqlıdır. Biz nəzərdə tutulan Şərq Tərəfdaşlığı Sammitinə hazırlıq prosesində Azərbaycanın fəal iştirakını və töhfəsini səbirsizliklə gözləyirik. Biz, həmçinin ATƏT-in Minsk qrupuna əlavə olaraq etimadın artırılması və sülhün qurulması prosesində üzərimizə rol götürməyə də hazırıq. Tərəflərin marağı olarsa, biz layihə imkanlarından istifadə edərək sərhədlərin delimitasiyası və demarkasiyası kimi sahələrdə təcrübəmizi bölüşməyi təklif edirik.

Avropa İttifaqı COVID-19 pandemiyasının təsiri kontekstində sosial və iqtisadi artım üçün və iqtisadi dirçəliş, dayanıqlılıq naminə birlikdə işləmək məqsədilə Azərbaycana dəstək verməyə davam edəcəkdir.

Zati-aliləri, Avropa İttifaqının Azərbaycan Respublikasına səfiri kimi təyin olunmaq mənim üçün şərəfdir. Mən qarşılıqlı faydalı əməkdaşlıq və ümumi maraqlarımız naminə səylərimi əsirgəməyəcəm. Vəzifələrimin icrasında Zati-alilərinin və Azərbaycan Respublikası hökumətinin dəstəyinə güvənərək ondan faydalanacağıma əminəm və buna görə Sizə minnətdaram".

Prezident İlham Əliyev: "Təşəkkür edirəm".

Səfir Petr Mixalko etimadnaməsini Azərbaycan Prezidenti İlham Əliyevə təqdim edib.

Sonra xatirə şəkli çəkdirilib.

Səfiri salamlayan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev deyib:

"Cənab səfir, Azərbaycana xoş gəlmisiniz. Sizə ölkəmizdə xoş vaxt keçirməyi arzu edirəm. Həyatınızın bir hissəsi bizim ölkəmizlə bağlı olacaqdır. Ümid edirəm, siz nəinki indi haqqında danışdığınız məsələlərin təşviqində bir səfir kimi fəal olacaqsınız, eyni zamanda, sizin ətrafı görmək və Azərbaycanı daha da yaxşı tanımaq imkanınız olacaqdır ki, Brüsselə və ya hər hansı başqa bir yerə geri döndükdə özünüzlə yaxşı xatirələr aparasınız. Siz qeyd etdiyiniz kimi, əməkdaşlığımızın, uzunmüddətli əməkdaşlığımızın çox geniş gündəliyi var. Bu, çox səmərəli və uğurlu əməkdaşlıqdır. Sizin qeyd etdiyiniz sahələr, əslində, bizim əməkdaşlığın prioritet sahələridir və prezident Şarl Mişelin bu yay səfəri zamanı biz bu məsələləri geniş müzakirə etdik. Bizim ikitərəfli münasibətlərimiz, regional inkişaf, postmüharibə vəziyyəti ilə bağlı baxışlarımız tamamilə üst-üstə düşür. Biz Avropa İttifaqına səylərin səfərbər olunması və postmüharibə vəziyyətinə töhfə verilməsi prosesində böyük tərəfdaşımız və dürüst vasitəçi kimi güvənirik. Bizim ənənəvi əməkdaşlıq sahələrimiz yaxşı məlumdur və biz böyük nailiyyət əldə etmişik. On il bundan əvvəl bu binada Avropa İttifaqı ilə Azərbaycan arasında enerji sahəsində əməkdaşlığa, enerji təhlükəsizliyinə dair Bəyannamə imzalandı. Bu, Cənub Qaz Dəhlizinin icrası istiqamətində çox mühüm addım idi. Bundan sonra əməli addımlar atıldı və ötən ilin son günündən bu yana biz artıq əməli nəticələri görürük. Azərbaycan qazı artıq Avropa bazarındadır.

Əlbəttə ki, bizim böyük layihə olan Cənub Qaz Dəhlizinin tamamlanması ilə bağlı planlarımız bununla məhdudlaşmır. Biz görürük ki, Avropa İttifaqının bir çox başqa üzvlərinin də təchizatçısı ola bilərik. Biz təchizatımızın coğrafiyasını genişləndirmək üçün Avropa İttifaqı ilə birgə işləməyi planlaşdırırıq - xüsusilə indi, qışda hər kəs görəndə ki, alternativ marşrut baxımından alternativ mənbə məhz enerji təhlükəsizliyidir.

Avropa Komissiyasının bizim nəqliyyat sektorumuza böyük əhəmiyyət verməsi məni çox qane edir. Prezident Şarl Mişelə səfəri zamanı ona bizim Dəniz Ticarət Limanının, Azad İqtisadi Zonanın imkanları təqdim olundu. Biz Avropa təsisatlarının bu sahəyə ciddi yanaşmasını görürük. Bu, təkcə iqtisadi, nəqliyyat sahəsində əməkdaşlıq baxımından deyil, həm də ümumilikdə regionda sabitlik və təhlükəsizlik baxımından həqiqətən də çox ümidverici sahə ola bilər.

Çünki əməkdaşlıq ölkələri birləşdirir, onları bir-birindən asılı edir, onlar faydanı paylaşa bilir. Həmin səbəbdən də bu, hər hansı yanlış anlaşılma risklərini minimuma endirir. Siz bəlkə də bilirsiniz ki, biz Azərbaycanda nəqliyyat infrastrukturu şəbəkəsinin bütün vacib elementlərini tamamlamışıq və biz hazırıq, artıq bu potensialdan istifadə edirik.

Sizin qeyd etdiyiniz digər sahələr də çox mühümdür. Humanitar, təhsil, sözsüz ki, Azərbaycanın demokratik inkişafı ilə bağlı bütün bu məsələlər bizim gündəliyimizdədir və biz Avropa İttifaqı ilə sıx şəkildə işləyirik.

Əlbəttə, indi düşünürəm ki, ən mühüm sahələrdən biri postmüharibə dövründə inkişafın, davamlı sülhün və əməkdaşlığın bərqərar olmasına Avropa İttifaqının töhfəsidir və biz buna hazırıq. Siz bəlkə də mənim bununla bağlı bəyanatlarımı eşitmisiniz. Mən nəzərdə tutduğumu deyirəm, bu, bizim siyasətimizdir. Biz səhifəni çevirmək, qonşumuz Ermənistanla əlaqələr qurmaq istəyirik. Biz sülh razılaşması, delimitasiya, kommunikasiyaların açılması ilə bağlı danışıqlara başlamağa hazırıq. Bu proses qismən başlayıb. Lakin düşünürəm ki, əgər Avropa İttifaqı fəal iştirak etsə, -mən belə bir istəyin olduğunu görürəm, - bu, bir çox sahələrdə bizə kömək edə bilər. Ümumilikdə Cənubi Qafqazda vəziyyət 30 il ərzində olmayan tamamilə yeni bir miqyas ala bilər. Bu da sabitlik, proqnozlaşdırılma və sülhün çox mühüm amili ola bilər.

Əminəm ki, siz çox məşğul olacaqsınız, çünki görüləsi çox iş var. Mən sizə və ailənizə uğurlar, Azərbaycanda yaxşı vaxt keçirməyi arzulayıram".

**Səfir Petr Mixalko qarşılıqlı səmərəli əməkdaşlığın nəticə verməsi üçün çox fəal şəkildə işləməyə hazır olduğunu deyib. Vurğulayıb ki, Prezident İlham Əliyevin qeyd etdiyi sahələr onlar üçün də böyük əhəmiyyət kəsb edir. O, gələcəkdə əməkdaşlıq üçün çoxlu imkanların yaranacağına əminliyini ifadə etdi.**

# Sahibə Qafarovanın rəhbərliyi ilə deputatlar Slovakiyaya gedir

**Milli Məclisin sədri Sahibə Qafarovanın rəhbərliyi ilə parlament nümayəndə heyətinin bu gün Slovakiyanın paytaxtı Bratislava şəhərinə rəsmi səfəri başlayır.**



Nümayəndə heyətinin tərkibinə Milli Məclisin komitə sədrləri - Sadiq Qurbanov, Musa Quliyev, Zahid Oruc, Slovakiya ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun başçısı Anar Məmmədov, deputatlardan Sədaqət Vəliyeva, parlament Aparatının rəhbəri Səfa Mirzəyev və digər rəsmi şəxslər daxildirlər.

Səfər çərçivəsində Milli Məclis sədrinin Slovakiya Respublikasının Baş naziri, Milli Şuranın sədri, ölkənin xarici işlər naziri ilə görüşləri nəzərdə tutulub. Görüşlərdə ikitərəfli və çoxtərəfli əməkdaşlığın dərinləşməsi, parlamentlərarası əlaqələrin bu günü və gələcək inkişaf istiqamətləri, qanun yaradıcılığında təcrübə və informasiya mübadiləsi və digər məsələlər ətrafında fikir mübadiləsi aparılacaq.

Səfər müddətində nümayəndə heyətinin üzvləri Slovakiya qanunvericilik orqanının fəaliyyəti ilə maraqlanacaq, Azərbaycanla parlamentlərarası dostluq qrupunun üzvləri ilə görüşdə münasibətlərin dərinləşməsi barədə fikirlərini bölüşəcəklər.

**Səfər oktyabrın 9-da başa çatacaq.**

**Nicat**

# Azərbaycanda ÜDM 3.6 faiz artıb

**Ötən gün Bakıda "Dayanıqlı inkişafın maliyyələşdirilməsi: COVID-19 pandemiyasından dayanıqlı və yaşıl bərpa" mövzusunda tədbir keçirilib. Tədbirdə çıxış edən İqtisadiyyat naziri Mikayıl Cabbarov bildirib ki, koronavirus pandemiyası bütün dünya ölkələrinin iqtisadiyyatına, səhiyyə sisteminə və digər sahələrə mənfi təsir edib. Pandemiya Azərbaycana da təsirsiz ötüşməyib və bunun Azərbaycan iqtisadiyyatına mənfi təsirinin qarşısını almaq üçün dövlət tərəfindən zəruri tədbirlər görülüb. M.Cabbarov bildirib ki, bu məqsədlə 2.7 milyard dollar dəyərində sosial və iqtisadi dəstək paketi tətbiq edilib.**

Nazir qeyd edib ki, 2021-2022-ci illərdə Azərbaycan iqtisadiyyatının bərpa dövrü olacağı nəzərdə tutulur:

"Bu il Azərbaycanda ÜDM 3.6 faiz artıb, qeyri-neft sahəsində artım daha çox olub. İlin əvvəlindən qeyri-neft ixracı 40 faiz artıb.

Azərbaycanın iqtisadi artım proqnozlarına yenidən baxılaraq yüksəldilib".

### *Azad edilmiş ərazilərə xarici sərəmayənin cəlb edilməsi...*

M.Cabbarov deyib ki, Azərbaycan öz ərazilərini erməni işğalından azad etdikdən sonra həmin ərazilərin bərpası, insanların orada təhlükəsiz şəkildə məskunlaşdırılması, iqtisadi inkişafın təmin edilməsi, ölkə iqtisadiyyatına inteqrasiya edilməsi və digər bu kimi çağırışlar qoyur. Nazir bildirib ki, Azərbaycanın bu istiqamətdə prioritetləri dayanıqlı inkişaf məqsədlərinin prioritetləri ilə üst-üstə düşür.

İşğal dövründə ermənilərin həmin ərazilərdə yaşayış evlərini, sosial obyektləri dağıtdığını, iqtisadiyyatı məhv etdiyini, ekoloji fəlakət törətdiyini qeyd edən nazir bildirib ki, həmin ərazilərin bərpa edilməsi böyük maliyyə vəsaiti tələb edir: "Azad edilmiş ərazilərə xarici sərəmayənin cəlb edilməsi Azərbaycan iqtisadiyyatına investisiyaları xeyli dərəcədə artıracaq".

### *Vergi ödəyicilərinin sayı 5 faiz artıb*

2021-ci ilin sonuna qədər qeyri-neft sektorunun ixracında indiyə qədər müşahidə olunmayan 2,2 milyard dollardan artıq bir rəqəm proqnozlaşdırıldığını tədbir iştirakçılarının nəzərinə çatdıran nazir bildirib ki, cari ilin 8 ayı ərzində qeyri-neft sənayesi 18 faiz artıb: "İqtisadi artım dinamikasını aktiv vergi ödəyicilərinin sayının artmasında da görürük. İlin 9 ayında vergi ödəyicilərinin sayı 5 faiz artıb. Həmçinin beynəlxalq maliyyə qurumları Azərbaycanın bu il və növbəti ildə iqtisadi artımla bağlı proqnozlarını yüksəldilib".

Nazirin sözlərinə görə, son 10 ildə qeyri-neft sektoru milli iqtisadiyyatın başlıca artım və inkişaf amilinə çevrilib: "Bu



müddət ərzində qeyri-neft sektoru 48 faizdən 70 faizə qədər artıb.

Bu sektorun inkişafına əlverişli olan sənaye zonalarında indiyədək bütün istehsalın həcmi 4,3 milyard manatdan çox, qoyulan investisiyanın həcmi isə 6,1 milyard manatdan çox olub. Bu dövr ərzindən birbaşa xarici investisiyaların həcmi 57 milyard dollar təşkil edib".

Artan iqtisadi dinamikanı vergi ödəyicilərinin sayında da müşahidə edildiyini vurğulayan M. Cabbarovun sözlərinə görə, ilin 9 ayında vergi ödəyicilərinin sayı 5 faiz artıb: "Qlobal səviyyədə pandemiya qarşı mübarizə çərçivəsində ayrılan iqtisadi yardım paketi və vaksinasiya prosesi beynəlxalq maliyyə qurumlarının proqnozlarına da təsirini göstərib.

Azərbaycanın iqtisadi artım proqnozları yenidən baxılaraq yüksəldilib.

Ümumilikdə, son on ildə ölkə iqtisadiyyatında mühüm struktur dəyişiklikləri və şaxələndirilmə nəticəsində qeyri-neft-qaz sektoru iqtisadiyyatın başlıca inkişaf amilinə çevrilib".

### *Azərbaycanın “yaşıl” inkişafının maliyyələşdirilməsini dəstəkləyirik*

Tədbirdə iştirak edən BMT İnkişaf Proqramının Azərbaycandakı rezident nümayəndəsi Alessandro Frakassetti isə öz növbəsində bildirib ki, təşkilat Azərbaycanın milli prioritetlərini dəstəkləyir:

"Ölkənin strategiyaları və prioritetləri dayanıqlıdır və etimad doğurur, bununla əlaqədar biz Azərbaycanın "yaşıl" inkişafının maliyyələşdirilməsini dəstəkləyirik".

**A.Frakassetti bildirib ki, Azərbaycanın "yaşıl" ekosistemi təkcə beynəlxalq münasibətlərin deyil, həm də tərəfdaşlıq və özəl münasibətlərin genişləndirilməsi üçün məkana çevriləcək.**

**Nicat**

## Baş nazir bu qanuna dəyişiklik etdi



**Nazirlər Kabineti "Tenderin nəticələri haqqında tender komissiyasının yekun protokolunun nümunəsinin təsdiq edilməsi barədə" 2 avqust 2002-ci il tarixli, "Mallar (işlər və xidmətlər) üzrə satınalma müqaviləsinin nümunəsi"nin təsdiq edilməsi haqqında" 28 fevral 2003-cü il tarixli və "Mülki Məcəllənin 422-ci maddəsində nəzərdə tutulmuş halların satınalma müqaviləsinə təsirinin qiymətləndirilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" 18 mart 2019-cu il tarixli qərarlarında dəyişiklik edib.**

Adalet.az xəbər verir ki, Baş Nazir Əli Əsədov bununla bağlı yeni qərar imzalayıb. Qərara əsasən, bundan sonra Azərbaycanda satınalma müqaviləsinin yerinə yetirilməsinin təminatının qüvvədəolma müddəti satınalma müqaviləsinin yerinə yetirilməsi müddətindən (tələb olunduğu halda texniki təminat müddəti daxil olmaqla) 30 bank günü çox olmalıdır.

Tenderin əsas şərtlər toplusunda müqavilənin Sifarişçinin yuxarı idarəetmə orqanı tərəfindən təsdiq olunması nəzərdə tutulubda, müqavilə həmin orqanın təsdiqinə qədər qüvvəyə minmir. Yuxarı idarəetmə orqanı təqdim olunmuş satınalma müqaviləsini 5 bank günündən gec olmayaraq təsdiq edir.

Bundan başqa, tərəflərin qiymətlərə yenidən baxılmasına dair qərarı barədə qarşı tərəfə rəsmi məlumat verməsi üçün müddət 20 gündən 10 günə endirilib.

## Qətlə yetirilən şəxsin həyat yoldaşı: Rövşən Əkbərova ömürlük cəza verilsin



**Bakı Hərbi Məhkəməsində qəsdən adam öldürməkdə təqsirləndirilən sabiq birlik komandiri Rövşən Əkbərovun cinayət işi üzrə məhkəmə prosesi keçirilib.**

Adalet.az-ın məlumatına görə, hakim Həbib Həsənovun sədrliyi ilə keçirilən prosesdə ifadə verən mərhum E.Əliyevin həyat yoldaşı Fəxrintac Əliyeva istintaqa verdiyi ifadəni təsdiq edib: "Bu qətl bütün ailəni darmadağın edib. Qatilin ömürlük cəza almasını istəyirik. Rövşən Əkbərovun adını hadisə baş verənədək eşitməmişdim". Qətlə yetirilən E.Əliyevin dostu Səməd Novruzov da istintaqa verdiyi ifadəni təsdiq edərək bildirib: "Saat 4-də Elçinin cənazəsini Bakıya yola salıb Kiyevdəki səfirliyə getdim. Orada keçmiş ukraynalı hərbçi Qriqoryev Aleksandr Mixayloviç dedi ki, hadisəni azərbaycanlı törədib.

Orada söz-söhbət gedirdi ki, Elçin mayın 31-də "Abşeron" restoranında dostları ilə yemək yeyib, sonra səfirliyə gəlib və orada mübahisə düşüb. Daha sonra Elçin yanındakı dostu ilə başqa bir restorana gedib. Səfirlikdə mübahisə etdiyi adamlar da ora gediblər və restoranda yenidən dava düşüb".

Növbəti iclas oktyabrın 13-ə təyin edilib.

İttihama görə, 2001-ci il mayın 31-dən iyunun 1-nə keçən gecə Rövşən Əkbərov Kiyev şəhəri, Deqtyaryov küçəsi, 7 ünvanda yerləşən "Sikora" kafesində yeyib-içdikdən sonra saat 4 radələrində həmin kafenin yaxınlığında Elçin Əliyevə aralarında yaranmış cüzi münaqişə səbəbindən ürək nahiyəsinə kəsici-deşici predmetlə xəsarət yetirib.

İstintaq sənədlərinə görə, Rövşən Əkbərov 2001-ci ildə Müdafiə Nazirliyi tərəfindən Ukraynaya 95 günlük xidməti ezamiyyətə göndərilib.

Həmin il mayın 31-də gecə 3-4 radələrində Kiyev şəhərində yerləşən "Sikora" kafesində tanışları Elçin Əliyev və Məzahir Şıxaliyevlə içki məclisində olub. Həmin zaman Rövşən Əkbərov sərxoş vəziyyətdə həmin şəxslərin ona qarşı hörmətsizlik etdiyini, onu tanımadıqları ilə bağlı etirazını bildirib.

Rövşən Əkbərov Elçin Əliyev və Məzahir Şıxalıyevlə mübahisə edib.

Bu zaman kafenin rəhbərliyi onları oradan çıxarıb. Tərəflər mübahisələrini çöldə davam etdiriblər. Rövşən Əkbərov Məzahir Şıxalıyevə yumruqla zərbələr vurub. Daha sonra avtomobilinə yaxınlaşaraq bıçaq götürüb. Bıçaqla Elçin Əliyevə xəsatət yetirib. Xəsarət nəticəsində Elçin Əliyev hadisə yerində ölüb.

**Rövşən Əkbərova Cinayət Məcəlləsinin 12.1, 120.2.2 (qəsdən adam öldürmə) və 12.1, 221.3-cü (xuliqanlıq) maddələri ilə ittiham elan edilib.**

## Baş Prokurorluq turizm şirkətlərinə xəbərdarlıq etdi

**Baş Prokurorluq vətəndaşları aldadan turizm şirkətlərinə xəbərdarlıq edib.**

Qurumdan verilən məlumatda bildirilir ki, son zamanlarda ölkə ərazisində turizm şirkətlərinin sayı olduqca artmaqdadır:

"Həmin şirkətlər müxtəlif marketinq üsullarından istifadə etməklə "isti təkliflər" təqdim edib özlərinə müştəriləri cəlb edir.

Bir çox hallarda vətəndaşlar bu kimi təkliflərə aldanaraq kifayət qədər məlumat əldə etmədikləri, tanımadıqları turizm şirkətlərindən saxta "səyahət paketlərini" almağa tələsirlər və nəticədə dələduzluq əməllərinin qurbanlarına çevirirlər.

Səyahət etmək istəyən şəxslərə xarici ölkələrə tur aldıqları şirkətlərin etibarlılığına diqqət yetirmələrini və yalnız müvafiq rəsmi qeydiyyatdan keçmiş turizm şirkətlərinə ödəniş etmələrini tövsiyə edirik.

Azərbaycan Respublikası Baş Prokurorluğu saxta "səyahət turlarını" sataraq vətəndaşlara qarşı dələduzluq edən şirkətlərin və onların nümayəndələrinin cinayət məsuliyyətinə cəlb olunacağı barədə xəbərdarlıq edir".

# İranı narahat edən "güclər" - Regiondakı "sionistlər və terrorçular"dan Rusiyaya şikayət

**İranın xarici işlər naziri Hüseyin Əmir Abdullahyan erməni həmkarı Ararat Mirzoyanla baş-başa görüşüb dərdləşəndən , hadisələri, siyasi prosesləri bir də analiz edəndən sonra özündən daha güclünün yanına qaçmağı özünə borc bilib.**

Adalet.az xəbər verir ki, o hazırda Rusiyada səfərdədir. Həmkarı Lavrovla görüşdə regionu müzakirə edəcək Tehran Cənubi Qafqazda əvvəlki gedişləri edə bilmədiyinin fərqindədir və statusunun nə olacağını Rusiya XİN- i ilə müzakirə etmək ehtiyacı duyub.

Abdullahyani bölgədə Türkiyənin nüfuzunun artmasını faciə kimi qəbul etməsi göz önündədir. Hətta o, Moskvada jurnalistlərə açıqlamasında bildirib ki, "Tehran Moskvadan regionda "sionistlər və terrorçular"ın mövcudluğuna reaksiya gözləyir".

Maraqlıdır , görəsən, regiondakı "sionistlər və terrorçular " kimdi?İran rəsmisi kimləri və hansı dövlətləri nəzərdə tutub?

Sualla bağlı iki variantımız var:

***Məlumdur ki, bu ilin mart ayının ilk günündən başlayaraq İsraillə İran arasında gərginliyin artması müşahidə olunur. Martın 1-də İsrailin baş naziri olan Binyamin Netanyahu İranı Oman körfəzində İsrailə məxsus gəmiyə hücum etməkdə ittiham etdi. İranı İsrailin ən böyük düşməni adlandıran Binyamin Netanyahu yük gəmisinə edilən hücuma görə İranın regiondakı mövqelərinə cavab zərbəsi endiriləcəyini açıqladı. İsrail hökumətinin başçısı İranın nüvə proqramına da toxunaraq Tehranın kütləvi***



***qırğın silahına sahiblənməsinə imkan verməyəcəklərini birmənalı şəkildə bildirdi. Çox maraqlıdır ki, Binyamin Netanyahu bu fikirini mart ayı başlayandan bir neçə dəfə təkrar edib.Bu İranın sətiraltı " sionist" dediyi İsraillə münasibətidir ki, kritikliyi ilə hər gün gündəmi məşğul edir.***

İranın dili ilə desək, "sionist "artıq aydındır. Bəs "lar" şəkilçisini vacib edən o terrorçu kimdir? Gəlin bunu da aydınlaşdıraq...

2021-ci ilin ilk ayından üzü bəri İranda türk ölkələri bayraqları və türk kimliyinin digər simvolik elementlərinə qarşı həssaslıq artıb. Belə ki, son vaxtlar Güney Azərbaycanın müxtəlif şəhərlərində mağaza tabloları, bannerlər, insanların geyimi və s. polis tərəfindən ciddi şəkildə nəzarət edilir.

***İran polisi Güney Azərbaycan şəhərlərində Türkiyə bayrağını yığışdırır. Hətta Türkiyə geyimi satan mağazalara da türk bayrağını asmağa icazə verilmir.***

Türkiyənin İraqın şimalında kürd militantlarına qarşı hərbi əməliyyatları davam etdirdiyinə görə Türkiyə ilə İran arasında gərginlik artmaqdadır. Ankaranın İraqdakı əməliyyatlarını İranın dəstəklədiyi yarıhərbi qüvvələrin yerləşdiyi strateji əhəmiyyətli bölgəyə qədər genişləndirməklə hədələməsindən sonra regiondakı bu rəqiblərin diplomatik mübahisələri sərtləşməyə başlayıb.

Hətta "İstər Türkiyə, istərsə də başqa bir ölkə, biz İraqa hərbi müdaxilə, irəliləmə və ya bu ölkədə başqasının hərbivarlığını qəbul etməyəcəyik" - deyə, İranın İraqdakı səfiri Urəc Məscidi müsahibəsində bildirdi.

Türkiyənin İraqdakı elçisi Fatih Yıldız tvitter səhifəsində"[Məscidi] Türkiyəyə İraq sərhədlərinə hörmətlə yanaşma barədə dərs verəcək son adamdır" - deyə, yazdı. Bu İranın Türkiyə ilə maraqlarının toqquşduğu yeganə məkan deyil. İran Türkiyənin Xəzərdə Azərbaycanla birlikdə hərbi təlim keçirməsindən narahatlığını ifadə etmişdi.İran XİN-in sözçüsü Səid Xətibzadə "Türkiyənin Xəzərdə hərbi mövcudluğunu dənizin statusuna görə qanunsuz" adlandırdı. Halbuki, təlimlər rəsmi olaraq Türkiyənin Xəzərdə hərbi mövcudluğu yox, Azərbaycanla sualtı hücum və müdafiə məşqlərini həyata keçirmək məqsədi daşıyır.

İkincisi, siyasi ekspertlərin də dediyi kimi, Zəngəzur dəhlizinin açılışı İran üçün qorxulu bir yuxudur. Ermənistanı dəstəkləyir, Azərbaycana qarşı çıxır. Türkiyə, Azərbaycan və öz sərhədlərində təzyiq altında tutduqları ən az 25 milyon türk əhalisinin olması onları çox narahat edir.

Xüsusilə son dövrdə Türkiyə, Pakistan və Azərbaycanın birgə həyata keçirdiyi Üç qardaş-2021 beynəlxalq təlimi İranın bütün qorxularını üzə çıxardı. Qarabağ savaşında Ermənistana qanunsuz olaraq maddi-texniki dəstəyi artırdılar. Bakı buna reaksiya verən zaman Qarabağ zəfərinin ildönümündə Azərbaycanla sərhəddə əsgərləri toplayıb təlimə başladılar.

İranın Azərbaycana qarşı aqressiyasına, Azərbaycan sərhəddində əzələ nümayişinə Pakistan dövlətindən gələn münasibət İranı şok vəziyyətinə saldı. Beləki, Pakistan İrana xəbərdarlıq edərək, deyib ki, elə etməyin ki, Elə etməyin ki, Tehrana qoşun yeridək

Bəli, İran bizə qarşı hər hansı bir addım atdığı anda Pakistan qoşunları böyük ehtimalla Tehranda olacaq.. .

Türkiyənin regionda artan nüfuzu, xüsusən Rusiyanın prezidenti Vladimir Putinlə Soçidəki görüşü və anlaşması İranı Türkiyəni sıradan çıxartmaq üçün nələrsə etməyə təşviq edir. Odur ki, İran XİN -ni Rusiyaya göndərib.

**Gözləyək görək Rusiya İranın ümidlərini doğruldacaq, yoxsa suya salacaq.**

**Əntiqə Rəşid**

## *Lavrov Blinkenlə İranı müzakirə etdi*

**Rusiyanın xarici işlər naziri Sergey Lavrov , ABŞ Dövlət katibi Entoni Blinkenlə telefon danışığı zamanı, İranın nüvə proqramı ilə bağlı birgə planın həyata keşirilməsi planının bərpa olunması məsələsini müzakirə edib. Telefon danışığı amerkan tərəfinin təşəbbüsü ilə baş tutub.**

Rusiya XİN-in saytında verilən şərhdə, bundan başqa bir



sıra aktual məsələlər də müzakirə edilib.Bu günlərdə ABŞ senatorlarından bir qrupu prezident Co Baydenə müraciət edərək, əgər Moskva Rusiyadakı ABŞ səfirliyinin genişləndirilməsinə icazə verməsə, 300 rusiyalı diplomatının ölkədən qovulmasını xahiş ediblər. Müraciət respublikaçı senator Mark Rubionun saytında dərc olunub.

**RF XİN-i ABŞ administrasiyasının belə bir addım atacağı təqdirdə, ciddi cavab tədbirləri ilə üzləşəcəyini bildirib. "ABŞ güman ki, Rusiyadakı xarici müəssisələrinin bağlanmasını istəyir. Onlar düşünməlidirlər ki, buna görə məsuliyyət onların üzərinə düşəcək"- deyə Rusiya XİN-dən bildirilir.**

**Rüstəm Hacıyev**

# Yağışlı havalar...

## Qəzalara münbit şərait yaradır

**Payız və qış aylarında nəqliyyat vasitələrini idarə etmək bir qədər də çətinləşir. Ən azından ona görə ki, yağışlı, qarlı havalarda yollar sürüşkən olur, buz bağlayır və nəticədə qəzaların baş verməsinə münbit şərait yaranır. Təbii ki, belə bir durumda avtomobilləri idarə etmək elə də asan olmur. Daha doğrusu, yolların sürüşkən olması nəqliyyat vasitəsi sahiblərinin bir növü sınağa, imtahana çəkir.**

Bu sınaqdan və imtahandan isə hər sürücü uğurla çıxa bilmir. O sürücülər çətin andan çıxış yolu tapırlar ki, onların təcrübəsi, səriştəsi olur, üstəlik də idarə etdikləri avtomobillər texniki cəhətdən daha normaldır. Aydındır ki, texniki cəhətdən saz və normal olan avtomobillər ilə mənzil başına daha təhlükəsiz çatmaq mümkündür.

Respublikanın avtomobil yollarında yağışlı və qarlı havalarda avtomobilləri idarə etmək hər bir sürücüdən peşəkarlıq və ustalıq tələb edir. Bu mənada Bakı-Şamaxı-Yevlax avtomobil yolu daha böyük önəm kəsb edir. Çünki heç kəsə sirr deyil ki, bu istiqamətdə digər respublika əhəmiyyətli yollara nisbətən daha tez qar yağır və eyni zamanda yağışlar düşür.

Belə havada istər-istəməz nəqliyyat vasitəsinin sükan arxasında əyləşən hər bir sürücü daha çox diqqətli olmalıdır. Artıq payız gəlib və yağışlar da yağmağa başlayıb. İstisna deyil ki, oktyabrda qar yağmayacaq. Belə ki, bəzən nəinki dekabr, yanvar, fevral aylarında və hətta oktyabr ayında ölkəmizə qar yağır. Ən çox da qar yaq dediyimiz kimi, Bakı-Şamaxı-Yevlax avtomobil yolunda hiss olunur. Həmin istiqamətdə hərəkətin təhlükəsizliyini Yol Patrul Xidməti Alayının 3-cü tağımının əməkdaşları həyata keçirir. Əlbəttə, hərəkətin təhlükəsizliyi ilə bağlı istər yaz, yay, istərsə də payız, qış aylarında bu tağımda



davamlı olaraq silsilə tədbirlər həyata keçirilir. Yəni yağışlı və qarlı havalarda tağım əməkdaşları bir qayda olaraq gücləndirilmiş iş rejimində çalışır. Üstəlik də, stasionar postda bir çox nəqliyyat vasitələri saxlanılaraq onlara yol polisi əməkdaşları tövsiyə edir ki, yağışlı havada diqqətli olsunlar, ara məsafəsi saxlasınlar və sürət həddini aşmasınlar. Təbii ki, bu cür maarifləndirici tədbirlər və qabaqlayıcı addımlar baş verə biləcək yol-nəqliyyat hadisələrinin qarşısını əvvəlcədən alınmasında köməklik göstərir.

Bununla yanaşı, onu da qeyd etməliyik ki, qəzaların ən çox ehtimal olunan yerlərə bir qayda olaraq mürəkkəb hava şəraitində əlavə naryadlar göndərilir. Tağım əməkdaşları sərt döngələrdə və hadisələrin baş vermə ehtimalı olan yerlərdə xidmət edərək sürücüləri məlumatlandırır, onlara xəbərdarlıq edir və tövsiyə edərək bildirir ki, yağışlı havalarda sürət həddini aşmasınlar, sürücülər bir-birinə hörmətlə yanaşsınlar.

Üstəlik də, yollarda qoyulmuş maarifləndirici plakatlar hər bir sürücünü daha diqqətli olmağa sövq edir. Şübhəsiz ki, bu kimi təbliğat və təşviqat vasitələri sürücülərin və hərəkət iştirakçılarının maariflənməsində önəmli əhəmiyyət kəsb edir.

Fərəhləndirici faktlardan biri budur ki, son aylar həyata keçirilmiş qabaqlayıcı tədbirlər nəticəsində bu tağımda ağır qəzaların qarşısı xeyli alınıb. Üstəlik də, son 3 ayda bu istiqamətdə piyadaların vurulması ilə bağlı bir fakt belə qeydə alınmayıb. Bu da onunla bağlıdır ki, 3-cü tağımın əməkdaşları sutkanın 24 saatı hərəkətin təhlükəsizliyi ilə bağlı üzərinə düşən tapşırıqları məsuliyyətlə yerinə yetirirlər. Piyadavurmaların azalmasının əsas səbəblərindən biri də odur ki, gün ərzində yolu təyin olunmuş yerdən keçməyən piyadalarla ciddi söhbətlər aparılır, qanuna məhəl qoymayan hərəkət iştirakçıları barəsində intizabi protokol tərtib edilir. Aydındır ki, həm təbliğat, həm də inzibati yolla baş verə biləcək qəzaların qarşısının alınması istər-istəməz öz müsbət nəticəsini göstərir. Onu da qeyd edək ki, piyadavurma hadisələrinin azalmasında Bakı-Şamaxı-Yevlax yolunda son vaxtlar istifadəyə verilmiş yolüstü keçidlərin də fəaliyyət göstərməsi mühüm əhəmiyyət kəsb edir.

Yol Patrul Xidməti Alayının 3-cü tağımının komandiri, polis mayoru Ürfət Şükürov bizimlə söhbətində bildirdi ki, payız mövsümü ilə əlaqədar olaraq əməkdaşlarımız tərəfindən qabaqlayıcı tədbirlər həyata keçirilir. Yolların sürüşkən olması nəzərə alınır, bu problemlər hərəkət iştirakçılarının diqqətinə çatdırılır və onlara tövsiyə olunur ki, respublika əhəmiyyətli yollarda hərəkət edərkən hava şəraitini mütləq nəzərə alsınlar. Çünki yağışlı, yağmurlu havalarda yol-nəqliyyat hadisələrinin baş verməsi üçün münbit şərait yaranır. Bax belə hava şəraitində sürücülər, hərəkət iştirakçıları diqqətli olmalı, sürət həddinə əməl etməli, piyadalar isə təyin olunmuş yerlərdən keçməlidir. Bəzən sürücü gecə saatlarında yağış yağarkən yol tam işıqlandırılmadığına görə yaxşı görmür və nəticədə qəza qaçılmaz olur. Və ona görə də piyadalar belə hava şəraitində daha diqqətli olmalı, avtomobillərin hərəkət etdiyi yerdən yox, təyin olunmuş yerlərdən keçməlidir. Bir sözlə, hər bir hərəkət iştirakçısı yol hərəkət qaydalarına əməl etsə, hadisələr də artmaz.

**Göründüyü kimi, Yol Patrul Xidməti Alayının 3-cü tağımının əməkdaşları mürəkkəb hava şəraitində öz xidməti vəzifələrini məsuliyyətlə yerinə yetirirlər. Bircə qalır sürücülərin və hərəkət iştirakçılarının yol hərəkəti qaydalarına əməl etmələrinə. Əgər hər bir hərəkət iştirakçısı yol hərəkəti qaydalarına əməl etsə, nə çoxlu sayda ağır qəzalar baş verər, nə də piyadalar həyatlarını itirərlər. Ona görə də birmənalı olaraq, hər bir hərəkət iştirakçısı qaydalara əməl etməlidir.**

**Faiq QİSMƏTOĞLU**

*Əntiqə Rəşid*

# Məni göylərə qaldıranlar: Əllərindən öpdüklərim!



*Bir dəfə 2-ci sinifdə oxuyanda 5 almışdım. Evə gələn kimi çantamı atıb, qaçdım tay-tuşlarımla evcik-evcik oynamağa. Anam ən azı 10 dəfə dedi ki, gəl dərsini oxu. Vecimədə almadım, onsuzda bu gün 5 almışdım, müəllimə sabah məni dərsə durğuzmayacaqdı!*

*Oynamaqdan yorğun düşdüm. Şeirimi əzbərləməmiş yatdım. Səhər sinfə kefi kök girdim. Hər necə olsa da, dərsə durmayacaqdım. Dünən 5 almışam axı!*



*Sinif rəhbərimiz Səlbinaz müəllim sinfə girib salamlaşan kimi dedi: Əntiqə,dur dərsini danış!*

*İlahi insan 1 anın icində necə ölüb -dirilərmiş...Nitqim tutuldu, gözüm bərəldi, Kitab arasımı açmışdım, dərs oxumuşdummu, şeirmi bilirdim!?*

*Şappıltı sinifdə "exo" verdi. Qadasın aldığım Səlbinaz müəllim, əvvəl üzümə tərs bir şillə, sonra da dodağımdan tutub başımı partaya vurdu..*

*Ağlaya -ağlaya düşünürdüm ki, xəbəri müəllimənə faşist anam yetişdirib. Yoxsa müəllim nə bilir mən dərsimi bilmirəm. Gözlərimdən yaş axa-axa, müəllimənin suallarına cavab verirəm:*

*-Bir də dərs oxumamış məktəbə gələssən?*

*-Yoooxx!*

*- Bir də , dərs oxumamış, oynamağa gedəssən?*

*- Yoooxxx!*

*- Bir də anana cavab qaytaracaqsan?*

*- Yooxxxxx!...*

*Zatən, ayrı cür cavab verməyə nə cəsarətim çatardı, nə də "müdafiə" üçün başqa söz də yox idi...*

*Aradan 40 il keçib Səlbinaz müəlliməni indi də görəndə ayaqlarım altımda əsir.*

*Bax , dərs oxumadan, boynuma düşən vəzifəni yerinə yetirmədən əyləncəyə qoşulmağa, başqa işlərlə məşgul olmağa elə o dəqiqələrdə tövbə elədim. Həmin o "şarta-part"lı gündən düz 10-cu sinfi bitirənə qədər dərslərimi hazırlamamış çantamı yığmadım.*

*Şəklim 10 il məktəbimizin "Şərəf lövhəsi"ndən düşmədi. Əlacı oldum, "Sinifkom" oldum. Əlini sevdiyimin əlində nə hikmət vardısa, sonra texnikumda oxuyanda da, universitetdə təhsil alanda da o gözəl vərdişi unutmadım.*

*Universitetdə "starosta" oldum. Müəllimə, rektora, prorektora pul xərcləmədən "Fərqlənmə" diplomuna layiq görüldüm. (Əslində pulum yox idi ki, heç universitetə gedən marşruta verim.*

*Piyada gedirdim dərsə. Pulum nə gəzirdi. Məcburiyyət! Oxumalıydım dərslərimi)*

*Uzun sözün qısası, Səlbinaz müəllimən 2-ci sinifdə oxuyan zaman mənə verdiyi "dərsi" bu gün də unutmuram. Yadıma düşür, o şillədən sonra, dərslərə necə sarıldımsa, məktəbin "göz"ü oldum. Tarix müəllimi həm də məktəbimizin drektoru Məmmədov Vaqif müəllim, demək olar ki, bütün yığıncaq və tədbirlərdə məni nümunə göstərirdi.*

*7-ci sinifdə oxuyanda "Təbliğa və təşviqat" şöbəsinin müdiri mərhum Qarayev İnqilab müəllim, hər səhər 20 dəqiqə məktəb radio qovşağında günün xəbərlərini mənə oxutdururdu. (Elə o vaxtdan vuruldum jurnalistikaya, mikrofonun arxasına keçəndə elə bilirdim Ofelya Sənaniyəm))) Bir şillədəki qüdrətə baxın də!*

*Platon deyirdi: "Müəllimlik hər şeydən əvvəl bir tanrı sənətidir".*

*Makedoniyalı İsgəndər öz müəllimi Aristotel haqqında demişdir:*

*"Valideynlərim məni göydən yerə endirdi, müəllimim isə yerdən göyə qaldırdı".Məhəmməd Peyğəmbər bilik öyrətməyi hər cür ibadətdən üstün sayır, Həzrəti Əli isə mənə bir hərf öyrədənin qulu olmağa hazıram, deyirdi. Nizami Gəncəvi müəllimi günəşə bənzədird.*

*Bu gün məni tanıyanlar məni ADAM hesab edir! Mənim ADAM olmağımda böyük rolu olan Səlbinaz müəlliməni, onun simasında şagirdlərinin gələcəyinin qarantı olan bütün vicdanlı, tələbkar, ləyaqətli müəllimlərin hamısını urəkdən təbrik edirəm, Allah sizi qorusun deyirəm!*

*Yeri gəlmişkən, Səlbinaz müəllimə ali təhsilli övladları ilə nə qədər fəxr edirsə, mənimlədə bir o qədər fəxr edir! Məni balalarından ayırmır!*

*Son olaraq: Mənə bir hərf , bir məlumat öyrədən bütün müəllimlərimə: orta məkrtəb, texnikum, universitet müəllimlərimin əllərindən öpürəm və fikrimi dahi sokratın sözləri ilə yekunlaşdırıram Dünyada hər şeyə dəyər vermək mümkündür, lakin müəllimin əməyinə əsla dəyər verilə bilməz!*

*Dünyasını dəyişmiş müəllimlərimə Allahdan rəhmət diləyirəm!*

# Hədəfdəki Quzanlı: "Sevgilim Vətən!"

**Bu gündən başlayaraq, Vətən Müharibəsində gördüyüm ən xırda depalları belə unutmadan xatirələrimi yazacağam... Uzaq zaman deyil... Şahidlərimin hamısı sağdı. Onların şahidliyi ilə 10 noyabra qədər silsilə yazımı oxuyarsınız! Yazılarımda başlıqlar dəyişsə də silsilənin adı "Sevgilim Vətən!" olacaq. 27 sentyabrdan 10 noyabra qədər...**

29 sentyabr- saat 5: 45-dən "müdafiəsiz "səngərin içində qalmışdım. Bir neçə dəfə cəhd elədim ki, elə bu gurultudan, bu tappa-tupdan bir canlı yayım edim. Alınmadı, çünki ərazidə bütün internet şəbəkəsini bağlamışdılar. İstərsən 19 dənə VPN yüklə, xeyri yoxdu. İnternet bağlı idi.

Yuxulu idim, bir az da mərmilərin səsi, yəqin bu üzdən çəkiliş edib telefonun yaddaşına atmaq da ağlıma gəlmədi. Saat artıq 10 olardı. Hava yenə xoş idi, Günəş bərq vururdu. Göyün üzü tər-təmiz idi... Masmavi... Atəş səsləri qısa arada susanda elə bilirdin ki, heç müharibə deyilən şey də yoxdu.

Əlimi uzadıb "səngərin" yanında yerə basdırılmış, üstünə "krosnu" quraşdırılmış dəmir dirəkdən yapışıb xəndəkdən çıxmağa çalışdım. Üst başım, şehdən nəmləmiş toza-torpağa batsa da əsas odur ki, çıxa bildim. Qulaqbatırıcı səssizlik çox da uzun sürmədii. Yenə atəş səsləri... amma bu dəfə bir az uzaqdan gəlirdi, başımızın üstündən keçmirdi...

Quzanlı çox təhlükəli zona idi. Ən çox mərmiyə tuş gələn Tərtər zonası deyilsə də, dağıntıların bu rayonda daha çox oldugu bildirilsə də, Quzanlı, ümumiyyətlə Ağdam ərazisi azacıq fərqlə Tərtərdən geri qalırdı...Niyəsini anladım.

***1. Uzaqvuran toplar və diğər ağır artilleriya Quzanlı kəndinin alt tərəfində cəmləşmişdi. Yerlilərin dilincə, Bala Quzanlıda . Həmin yerdən Ağdamın ərazisində, strateji obyektlərdən olan 1992-ci ildə Azərbaycan ordusu tərəfindən ələ keçirilən Uzundərə silah bazası olan ərazi, eyni zamanda Şahbulaq, Xaçındərbənd kimi digər strateji yüksəklik və mövqelərdən atılan mərmilərin qarşısı alınırdı. Bir sözlə, mərmilər hədəflərə məhz Quzanlı kəndinin,bizim evin üzərindən keçib gedirdi. Ona görə də, o kəndlərdə qalmış dinc sakinlərin çıxarılması da vacib idi. Və demək olar ki, Ağdam rayonu ərazisində çox az sayda qadın, uşaq, yaşlı, xəstə qalmışdı... Getməyənlər isə qonşularında evləri darmadağın edən mərmilərdən , əhaliyə xəsarət yetirən dağıntılardan sonra çıxmaq məcburiyyətində qaldılar. Bu səbəbdəndə kənd ərazisi təxminən 70 faiz boşaldılmışdı.***



***2. Ağır artilleriyanın digər böyük bir hissəsi isə Quzanlı, İmamqulubəyli kəndlərinin ərazisindən keçib gedən Xaçın çayının yatağında yerləşmişdi. Ordan da silahlar (maili şəkildə) Ağdamın cənub-şərq tərəfinə, təxminən Yusifcanlı, Mərzili və ümumilikdə Qarqarçay-ın sağ sahilini ermənilərdən zərərsizləşdirirdi. Həmin mərmilər də kəndin xüsusən, köçkünlər üçün salınmış qəsəbənin üzərindən keçib gedirdi.***

***3. Ermənilərin Quzanlını hədəf götürməsinin başlıca səbəbi kütləvi insan qətli, çaşqınlıq, pərən-pərənlik, inamsızlıq yaratmaq idi. Xalqın qələbəyə olan inamını qıra bilsəydilər...Ermənilər çox çalışırdılar ki, ən çox bu fürsətdən yararlansınlar.***

***Təmas xəttindən uzaqlaşan yerli sakinlərin məhz Ağdamın mərkəzi hesab edilən Quzanlıya sığınmasını təxmin edirdilər.***

***4. Quzanlıda yerləşmiş ağır artileriya taboru, kəndin ortasındakı Ağdam Mərkəzi Xəstəxana, kəndin bir addımlığında olan, Qarabağ zonasında ən böyük hərbi hospital hesab edilən Sarıcalı hospitalı da ermənilərin hədəfində idi. Muğam Evi müharibə vaxtı Qərargah kimi istifadə olunurdu və Ağdam ərazisində döyüşün gedişi ordan izlənilirdi.***

Yəqin ki. unutmamısınız: Ötən il Rusiya Ermənistana 400 tondan çox müasir hərbi texnika və vasitələr hədiyyə etmişdi. Özü də proses Tovuzda aktiv döyüşlərin başladığı bir vaxtda başlamışdı və hərbi yüklər Ermənistana gizli şəkildə çatdırılmışdı. Həmin o təmənnasız silahlar soydaşlarımızı hədəf almışdı və evini- eşiyini dağıtmaqla bərabər canını da alırdı.

Yeri gəlmişkən deyim , ora çatandan başımın üstündə , daha doğrusu gözə görünməyəcək bir yüksəklikdən gələn uğultunun dron və Quzanlıya atılan mərmiləri zərərləşdirən aparat olduğunu mənə söylədilər. Məhz o dronların hesabına Quzanlıdakı əsas strateji obyektlərin bir çoxu salamat qaldı.

Asfaltla şütüyən toplar, tanklar, hərbi maşınlar, atışma səsləri, getdiyin əraziləri hədəf alan mərmilər...

Yolların kənarlarında döyüşü müşahidə edən, həyatını böyük bir təhlükəyə saldığından xəbəri olmayan insanlar... Bir də şəhidlər... Artıq gəlməyə başlayırdı, qan qoxulu tabutlar...

Elə hesab edirəm, oxucularım Ağdam zonasının nə qədər təhlükəli olduğunu mənim təsvirimdən sonra anladı. Bu gündən isə belə bir yerdə 44 gün qalmağın təhlükəsindən danışacağam.

"Səngərdən " çıxıb üst-başımı çırpdım. Anamın evində ərzaq vardı. Onları hazırlamağa vaxtım yox idi. Evdən tələsik gəlmişdim. Özümlə ərzaq gətirməmişdim deyə mağazaya üz tutdum. Asvaltda polislərdən sədd vardı, deyəsən hərbi kalon keçəcəkdi. "Xalturşiklər" yolun kənarından yığışdırmışdılar. Bir neçə ərzaq mağazası, telefon təmiri və satışı, bir də apteklər açıq idi. İndi üzünə baxmağa da iyrəndiyim, sosiska, kolbasa, "qaviadina", konserva çörək alıb evə döndüm. Artıq aclıqdan ayaqlarım yerimirdi.

Yeməyimi yeyəndən sonra ötən gün döyüşə getmək üçün hərbi komissarlığa üz tutan gənclərlə olan reportajımı hazırlamaq istədim. Kompyüteri açıb.gözləyirəm Bu arada rayondan kənarda yaşayan bütün qohum - əqrəbalar hamısı bir-bir zəng edib məni qınadılar. Səhv etdiyimi dedilər, geri dönməyimi məsləhət bildilər. Axxx, səni ana...

Atışma yenidən başladı, naəlac qalıb, yenidən "səngər"ə qayıtdım. Yenə də həyəcanlı səslər, şütüyən avtomobillər, Təcili Yardım maşınlarının vahiməli səsi mərminin səsinə qarışmışdı.

Sakitcə oturmuşam üstüaçıq, heç nəyə yaramayan səngərimdə. Ağlıma qəribə bir fikir gəlir: Görən mən niyə qorxmuram? Niyə bu qədər sakitəm?"

Xəyalım, ötən illərə uçur...Bu mənim gördüyüm ilk müharibə deyildi axı, həyəcanlanım, qorxum... 1988-ci ilin fevral ayından-1994-cü ilin12 mayına qədər Qarabağda baş verən bütün hadisələrin şahidi olmuşam. O top-tank da mənə tanış idi, gurultuyla gələn mərmilərdə, hər gün evlərə gələn şəhid tabutları da. O vaxtı da əsgər və zabitlərimiz canları-qanları bahasına döyüşürdülər, indi də . Dəyişən heç nə yox idi. Tək bir nüansdan başqa. O vaxt düşünürdük ki, mərmi yağışlarına baxmadan dirənib-durduğumuz kəndi qəflətən mənfur ermənilər işğal edə bilər. İnsanları əsir və girov götürə bilər, qadın və qızların başına Xocalı faciəsini gətirə bilər, amma indi o nüans yox idi. O nüans yox idisə, demək, mərmidən ölmək adi, sıradan bir ölüm olardı mənim üçün.. Təki erməni əlinə keçməyəsən...Amma bizim tərəfə erməni diversantların keçməsi haqqında xəbərlər də bitib tükənmirdi. Qorxmurdum, zərrəcən qorxmurdum, sadəcə ölmək istəmirdim ki, müharibəni sonunu görüm...

**Ən əsası isə Qələbəni öz gözümlə görüm...**

**Əntiqə Rəşid**

# Əvvəllər bir evin, indi isə bir elin fəxr etdiyi oğul: Şəhid Qərib Balacayev zirvəsi

**Onun iki bacısı vardı. Bütün bacılar kimi arzuları da vardı. Qardaşı Qəribin toyunda sındıra-sındıra süzmək, "bəy bacısı" olub rəqs meydançasından çıxmamaq, hələ lap, toyda ayaqyalın oynamaq... Bacılar xəyallar qururdular. Böyük bacı : Filankəsin bir qızı var, elə göyçəkdi... Vallah Qəribə də yaraşar, elə boy-buxunlarıda uyğun gələr"**

Kiçik bacı onun sözünü kəsərdi: Yox e, Bəhmənkəsin qızı ondanda gözəldi. Qardaşıma elə bu qız yaraşar"

Daha sonra gülüşüb, qardaşının toy gününü təsəvvürlərinə gətirər, orda necə hərəkət edəcəklərini, gəlinlə bəyin başına necə dolanaclarını, sevinclərini düşündükcə şirin-şirin gülümsünür, o günün tez gəlməsini arzulayırdılar.

Adalet.az xəbər verir ki, Qərib Nəsib kişinin yeganə oğul övladıdır. Onun hər addımında, hər hərəkətində, danışığında öz gəncliyini görürdü. Qəribin doğulduğu gün bütün el-oba ona gözaydınlığı vermiş "böyük kişilərdən olsun " demişdilər. Bəli artıq oğlum böyük kişidir. . Zarafat deyil, PDM sürmək də hər oğulun işi deyil"-deyən Nəsib kişi onu hərbi geyimdə görəndə oğlu ilə qürur duyurdu





Balacayev Qərib Nəsib oğlu 1997-ci ilin dekabr ayının 25-də Ağcabədi rayonunun Yuxarı Qiyaməddinli kəndində anadan olub. Ailəsi Ağdam rayonun Mərzili kəndindən məcburi köçkün olaraq Beyləqan rayonunun Təzəkənd kəndində məskunlaşıb. 2005-ci ildə həmin kənddə Milli Qəhrəman Əliheydər Məmmədov adına tam orta məktəbin 1-ci sinifinə qəbul olunub. 2016-ci ildə həmin məktəbin 11-ci sinfini bitirib. 2016-ci ilin iyul ayının 8-də hərbi xidmətə çağırılıb. Ağdam komissarlığı tərəfindən N saylı hərbi hissədə "Rabitə kəşfiyyatçısı" olaraq xidmət etmişdir.



Hərbi xidməti 2018-ci ilin 8 yanvarında başa vurduqdan sonra özəl şirkətlərin birində çalışıb. Daha sonra işdən çıxaraq 2019-cu il 9 apreldə "N" saylı hərbi hissədə komandirin "Baş mexannik sürücüsü" kimi PDM idarə edib.

Azərbaycan Ordusunun- XTQ əsgəri -rabitə kəsfiyyatçısı, MAHHXQH -BMP 310 baş mexannik sürücüsü Şəhid Qərib Balacayev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsində savaşıb. 28 sentyabrda Beyləqan rayonun Təzəkənd kəndində dəfn olunub.

Vətən müharibəsi zamanı göstərdiyi igidliklərə görə ölümündən sonra Ali Baş Komandan İlham Əliyev tərəfindən "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "İgidliyə görə" medalları ilə təltif olunub.

Qəribin şəhadətə qovuşması, bir ailənin ən gözəl arzularını, xəyallarını gözündə qoydu. Amma böyük bir xalqı sevincə qərq elədi! Axı, Qərib kimi igid oğulların qanı bahasına qələbə bizim olub. Doğma Qarabağ, Ağdam, Mərzili kəndi məhz Qərib kimi şəhidlərin qanı bahasına ermənilərdən təmizləndi. Bütün xalq, bütün Qarabağ, bütün Ağdam, bütün Mərzili işğaldan azad edilmiş torpaqlarımızın sevincini yaşayır, toy-bayram edir.

**Xalqını 30 illik töhmətdən qurtaran igid şəhidlərimizin qarşısında ellikcə baş əyirik...**

**Əntiqə Rəşid**

## Saakaşvili özünü Putinin əsiri elan etdi

**Gürcüstanın eks-prezidenti Mixael Saakaşvili, Ukrayna prezidenti Vladimir Zelenskiyə ünvanladığı məktubda, onun həbsilə bağlı dövlət başçılarının bəyanatından "çox qürur duyduğunu", özünü Rusiya lideri Vladimir Putinin "şəxsi əsiri" adlandırdığını bəyan edib.**

"Hörmətli Vladimir Aleksandroviç, sizin yüksək dərəcəli dövlət xadimi kimi, mənim qurama ittihamla həbs olunaraq, Gürcüstan həbsxanasına göndərilməyimlə bağlı sözləriniz məni çox qürurlandırdı. Bu həbsi Rusiyadan başqa heç bir dövlət dəstəkləmədi. Mən Gürcüstanı öz həyatımdan artıq sevirəm, həmçinin vətəndaşı olduğum, ikinci vətənim saydığım Ukraynanı da çox sevirəm. Mənim orda ailəm, dostlarım var və mən bunu çox dəyərləndirirəm... Mən faktiki olaraq Putinin şəxsi əsiriyəm və sizin bununla bağlı prinsipial mövqeyinizi yüksək qiymətləndirirəm..."- deyə Saakaşvilinin Facebook səhifəsindəki məktubunda bildirilir.

## Makron Əfqanıstanda qadınların vəziyyətindən narahatdı



**Fransa prezidenti Emanuel Makron, Taliban hərəkatının hakimiyyəti hələ keçirməsindən sonra, Əfqanıstanda qadınların dəhşətli vəziyyətdə düşdüyünü bildirib.**

"Əfqanıstanda bu gün qadınların vəziyyəti dəhşətdi. Ona görə onların çoxu artıq Əfqanıstanı tərk edib. Beynəlxalq ictimayyət bacardığını etdi... Fransa maksimum əlindən gələni etdi... Son illər bir çox qadının təhsil almaq, idmana, incəsənətə maraq göstərməsindən sonra, artıq bütün qapılar onların üzünə bağlanıb" - deyə, Fransa lideri France İnter radiostansiyasına müsahibəsində bildirib. O, daha sonra əlavə edib ki, taliblərin hakimiyyətinin tamınması üçün, onlar əfqan qadınlarının gələcəyini təmin etməlidirlər.

**MEHRİBAN**

## Sürücü avtobusun qapısını bağlamadan idarə edirdi

**Bir neçə gün bundan əvvəl 50 nömrəli marşrutda qəribə bir hadisə baş verdi. Belə ki, avtobusu idarə edən sürücü qabaq qapını bağlamadan hərəkəti davam etdirirdi. Bu vaxt sərnişinlərdən biri ona dedi ki, oğul, zəhmət olmasa, qabaq qapını bağlayın, külək məni vurur! Sürücünün isə cavabı çox qeyri-adi oldu: "Əgər külək səni vurursa, keç arxada əyləş! Mən qapını ona görə açıq qoyuram ki, yuxu məni tutmasın və avtobusu aşırmayım".**



Görürsünüz, nə qədər qəribə bir hadisədir. Çünki avtobusun sürücüsünü də qınamaq düzgün deyil. Onlar 8 saat əvəzinə, 16 saat sükan arxasında əyləşirlər. Bu isə o deməkdir ki, bu 16 saatda sürücü həddən artıq yorulur, qəza şəraiti yaranır və hətta ağır hadisələr baş verir.

Ona görə də daşıyıcı şirkətlər zəhmət çəkib sürücülərin hüquqlarını qorumalıdır ki, onlar da 8 saatdan artıq işləməsin, özlərini və sərnişinləri qorumaq üçün bax belə avtobusları qapısı açıq idarə etməsin. Hərçənd ki, "Yol hərəkəti haqqında" Qanunla nəqliyyat vasitəsini qapısı açıq sürmək qanun pozuntusudur və buna görə sürücü inzibati məsuliyyət daşıyır.

**Emil FAİQOĞLU**

## Rusiya-ABŞ arasında diplomatik əlaqələr təhlükədə



**Bir qrup senatorun Rusiyanın 300 diplomatının ABŞ -dan qovulması ilə bağlı müraciətinə, prezident Co Bayden çətin ki, razılıq verəcək. Bu faktiki olaraq iki ölkə arasında dünya üçün faciəvi nəticələrə gətirib çıxara bilər. Bu fikirləri politoloq, MDU-nin dosenti Boris Mejuyev RİA Novostiyə bildirib. "Hesab edirəm ki, Bayden buna getməz, ona görə ki, bu addım təkcə Rusiya və ABŞ üçün deyil, bütün insanlıq üçün faciəyə çevrilə bilər. Co Baydenin belə bir addım atması, faktiki olaraq iki ölkə arasında diplomatik əlaqələrin pozulmasına gətirib çıxarar. Bayden yəqin ki, bunu yaxşı anlayır"- deyə politoloq bildirib.**

Mejuyevin sözlərinə görə, baxmayaraq ki, demokratlar konqressdə üstünlüyə sahibdirlər və Bayden çoxluğun dəstəyinə malik deyil, yenə də O, vəziyyətin bu cür gedişinə imkan verməz.

"Belə bir addımın atılacağı üçün ciddi əssasların olduğu görünməsə də, belə bir məktubun meydana gəlməsinin özü həyəcan doğurmaya bilməz. Söhbət, ABŞ administrasiyasının Rusiyaya müqavimət göstərmək istiqamətində zəifliyini üzə çıxarmaqdan gedir. Amerikanın Rusiyaya təsiri zəifləyir, Rusiya kibeməkanında, iqtisadiyyatda, Avroasiyada və sair, ABŞ -ı sıxışdırmaqdadır. Çinlə münasibətlərdə isə bu sıxışfırma təhlükəli xarakter alır. Ona görə də hansısa qəti addımların atılması zəruridir"- deyə Majuyev düşünür.

16 iyunda iki dövlətin prezidentlərinin Cenevrə görüşündə, Vladimir Putin və Co Bayden diplomatik missiyaların normal fəaliyyət göstərməsi ilə bağlı razılıq əldə etmələrinə baxmayaraq, hələ ki, bu sahədə işlər çox ləng gedir.

**Rüstəm Hacıyev**



*Eminquey*

# Narkobaronlar aldıqları malın pulunu necə ödəyirlər?

***Narkobaronlar aldıqları malların pulunu necə ödəyirlər?***
***Düşünün.***
***Mal Cənubi Amerikadan gəmiyə yüklənir.***
***Okeanın bu tayına çatana qədər macəra dolu yol...***
***Narkobaron pulu çantayla versə bir dərd, yolda malın başına hər cür iş gələ bilər.***
***Yox, əgər "ölkəmə sağ-salamat çatandan sonra verəcəm" desə, necə yollayacaq?***
***Banklamı?***
***Ya da nisyə dəftərimi tutacaqlar? Ayın sonunda haqq-hesab etmək üçün...***
***Bu qara-qura aləmdə kim kimə necə güvənir, etibar edir?***
***Maraqlıdır.***
***"Pulu ver, malı al" prosesi necə baş tutur?***
***Əlbəttə ki bir yolunu tapıblar.***
***Məsələn, iki gün öncə "Hürriyyət" qəzetində Fevzi Kızılkoyunun hazırladığı bir xəbər vardı.***
***Ankara polisi düz 9 ay əvvəl əməliyyata başlayıbmış.***
***Tolqa adlı bir narkobaronun dalınca düşüblərmiş.***
***Bizim bu Tolqa ta Kolumbiyaya qədər gedibmiş.***
***Babat bir malı düz ana mənbəyindən almağa.***
***"Cali Karteli" adlı narkotikçi qrupu ilə bazarlığını edibmiş.***
***Kokaini hazırlayıbmışlar.***
***Gəmiyə yükləyəcəkmişlər.***
***Elə bu məqamda... Biinsaf Cali Tolqanı girov götürübmüş.***
***Kokain Türkiyəyə çatsın, pul Caliyə çatsın, ona qədər Tolqa Calinin qonağıdır.***
***Düz 2 ay...***
***Ver pulu, al Tolqanı...***
***Deməк ki, üsullardan biri bu imiş.***
***Bəs başqa?***
***Dünyanım bir nömrəli kokain baronu El Çapo var idi.***
***İndi Amerikadadır.***
***Onun Meksikadan Amerikaya mal göndərmək üçün qəşəng bir üsulu varmış.***
***Kokaini balıq konservalarının altında gizlədirmiş.***
***Konserva qablarının altında kokain üçün yer düzəldirmiş.***
***Narkotik axtaran itlər balıq qoxusundan kokaini ayırd edə bilmirlərmiş.***
***Yanına da bibər turşusu, itlərin burnu qoxudan çürüdümü?***
***Vəssalam!***
***Uzun müddət bu oyunu çözə bilməmişdilər.***
***Bu Tolqa El Çapodan təsirlənibmiş. Kokaini banan, çiçək, qəhvə qutularının içində gizlədirmiş.***
***İtlər yenə çaş-baş...***
***Tolqa heç...***
***Ankara polisi onsuz da bunu qarabaqara izləyirdilər.***
***Tutublarmış. 71 kilo tərtəmiz kokain...***
***Dünya narkotik hesabatlarına baxsaq görərik ki, narkotik maddələrin daşınmasında gəmilərin payı 78 faizdir.***
***Hətta bəzən gəminin sahibinin xəbəri belə olmur.***
***Bir kapitan, iki gəmi işçisi, vəssalam!***
***Gəmilərin altına qaynaqla xüsusi bölmə-zad düzəltdirən var.***
***Gəminin dənizin içində qalan hissəsinə xüsusi seyf-filan düzəltdirən var.***
***Təbii ki təkcə gəmilər deyil...***
***İkinci yerdə şəxsi təyyarələrdir.***
***Məşhur müğənnilərin xarici ölkələrdən verdiyi mənasız, məzmunsuz konsertlər.***
***Bu mənasız konsertlərə getmək üçün o boyda benzin işlədən təyyarələr.***
***Şəxsi təyyarələrlə baş tutan qəribə gəzintilər.***
***Bunlar artıq şübhəlidir.***
***Neyləyək?***
***Şübhələnməyək?***
***Yapışın narkotik hesabatlarını hazırlayanların yaxasından...***



# Yaddaşlarda yaşayanlar

**Azərbaycan mədəniyyəti tarixində elə şəxsiyyətlər var ki, onların adları bir ömür boyu yad edilsə belə tək yaşadıqları dövrün ziyalıları arasında xatırlanmırlar. Əksinə öz xalqının milli sərvətinə, milli mədəniyyət tarixinin bir parçasına çevrilə bilirlər. İdrakın yaddaş, güc varlığı olaraq hər zaman qəlblərdə yaşayırlar. Belə sənətkarlardan biri də el arasında Mobil kimi tanınan əsl adı isə Müğbil olan Respublikanın Xalq artisti Müğbil Əhmədovdur.**

Görkəmli sənətkatın bu il sentyabr ayının 10-da 90 yaşı tamam olur. Ancaq elə ilk andaca böyük təəssüf hissi ilə bildirmək istəyirəm ki, nədəndirsə sevilən və tanınan sənətkarlarımızı ancaq yubiley tarixlərindəcə xatırlamaqla kifayətlənirik. Xalqının milli mədəniyyət tarixinin bir parçasına çevrilən sənətkarlarını gənc nəslə tanıtmaq missiyasını sona qədər tamamlaya bilmirik. Laqeyidlik və unutqanlıq hissindən uzaq ola bilmirik. Ancaq xoşbəxt taleli sənətkarlar isə heç zaman unudulmurlar. Əksinə qəlblərdə, zehinlərdə özlərinə əbədi yurd-yuva salmaqla milyonların sevimlisinə çevrilirlər. Elə bu gün həyat və yaradıcılığı haqqında danışmaq istədiyim Müğbil Əhmədov tək. Müğbil (Mobil) Salman oğlu Əhmədov 10 sentyabr 1931-ci ildə Gəncədə ən nüfuzlu adamlardan biri hesab edilən məşhur milyonçu, zərgər, ana babası olan Məşədi Ağamirzənin ailəsində anadan olub. O, 1955-ci ildə Əzim Əzimzadə adına Rəssamlıq Məktəbinə daxil olub. Bir il sonra isə Azərbaycan Dövlət Konservatoriyasına qəbul edilərək professional vokal məktəbinin təşəkkül və təkamülündə mühüm rol oynayan, Xalq artisti Bülbülün sinfində təhsil alıb.

### *Bu məqamda*

***Müğbil Əhmədovun təhsil alması ilə bağlı söhbət düşərkən qızı Nigar Əhmədova xatirələrini bizimlə bölüşür: "Atam orta təhsil illərindən rəssamlığa çox meylli olub. Bu da səbəbsiz deyildi. Həmin illərdə Gəncə Dövlət Dram Teatrının rəssamı kimi çalışan Böyükbəy Əliyarbəyli şəhərdə rəssamlıq məktəbi açmışdı. Yeniyetmə gənclərin çoxunun ən böyük arzusu bu məktəbə üzv olmaq idi. Atamda iki il burada rəssamlığın əlifbasını öyrənməklə yanaşı, Mirzə Ələkbər Sabir adına 5 saylı şəhər tam orta məktəbində təhsilini davam etdirib. 1955-ci ildə o, orta məktəbi bitirib. Ancaq o, sənət seçmək işində iki yol arasında qalıb: müğənnilik yoxsa rəssamlıq? Təbii ki, uşaqlıq arzusu və ürəyinin səsi onu Əzim Əzimzadə adına Bakı Rəssamlıq Məktəbinə gətirib. Qəbul komissiyasının sədri məktəbin direktoru, rəssam Hafiz Məmmədov olub. Nədənsə burada da atamın əl işləri "qeyri-adi" hesab olunub. Onun rəsmləri kompozisiya baxımından bitkin, rəng koloriti əlvan və cazibəli, obrazları isə canlı olduğundan komissiyada şübhə doğurub. Buna görə də qərara gəliblər ki, atamı əyani şəkildə yoxlasınlar. Müəllimlərin kiçik sınağından uğurla çıxan atam şübhələri alt-üst etməyi bacarıb. Çəkdiyi natürmort onların çox xoşuna gəlib və komissiya üzvlərinin yekdil qərarı ilə o, birbaşa ikinci kursa qəbul olunub. Elə həmin gün qalması üçün ona yataqxanada yer də veriblər. Çox keçməyib ki, rəssamlıq məktəbinin ən istedadlı və çalışqan tələbəsi olaraq Repin adına təqaüd alanlar sırasına qoşulub".***

### *50-ci illərin sonlarında*

Azərbaycanın bir qrup incəsənət xadimi vokal qabiliyyəti olan məktəbliləri seçmək məqsədi ilə vaxtaşırı ölkənin müxtəlif bölgələrinə ezam ediliblər. Növbəti səfər Gəncəyə olub. "İstedadlar axtarırıq" devizi altında şəhərin özfəaliyyət dərnəklərində olan bu seçməbaxış Mahud fabrikinin klubunda təşkil edilib. Bu zaman Müğbil Əhmədovun uşaqlıq dostu olan Xəlilin məsləhəti ilə o, özünü bu baxışda sınamaq istəyib. Nigar Əhmədova bu barədə deyir: "Atam bu müsabiqədə "Evləri var xanə-xanə" xalq mahnısını və bəstəkar Tofiq Quliyevin "Neftçilər" mahnısını ifa edib. Onun şaqraq səsini dinləyib məmnun olan Fikrət Əmirov 21 yaşlı atama mütləq Bakıya gedib musiqi təhsili almasını tövsiyə edib".

Müğbil Əhmədovun Konservatoriyaya qəbul olmasının da çox maraqlı bir tarixçəsi var. Belə ki, 1956-cı ildə əsgəri xidmətə qeydiyyata düşmək məqsədilə o, qış tətili günlərində Gəncəyə qayıtmağa hazırlaşıb. Gəncəyə yola düşmək üçün Dəmiryolu vağzalına gələn Müğbil Əhmədov vaxtın çox olamsından istifadə edərək vağzal yaxınlığında gəzişmək qərarına gəlib. Bu zaman Konservatoriya binasının yanından keçən Müğbil Əhmədov musiqi sədaları gələn tərəfə boylanıb. Müğbil Əhmədov bu haqda öz xatirələrində yazır: "Mən burnumu pəncərənin soyuq şüşəsinə dirəyib xeyli qulaq asdım. Mahnı bitmişdi, ancaq mən gözlərimi içəridən çəkə bilmirdim. İçəridən mənə işarə etdilər ki, nə istəyirəm. Əlimi qulağımın dibinə qoyub işarə etdim ki, mən də oxumaq istəyirəm. Məni içəri dəvət etdilər. Vokal müəlliməsi olan Pəri xanım məndən soruşdu ki, nə oxuya bilirsən? Mənsə cavabında dedim ki, "Evləri var xanə-xanə". Burada pianinonun müşaiyəti ilə ən çox sevdiyim həmin mahnını oxudum. Pəri xanım çox sevindi və tələsik yır-yığış edərək "arxamca gəl" dedi. O, məni həmin binanın ikinci mərtəbəsinə çıxarıb, iri bir otağa apardı. Bura bildiyim qədər rektorun otağı idi. Burada ilk dəfə idi ki, Bülbülü görürdüm. Onun bütün hərəkətlərinə, geyiminə, danışığına heyranlıqla tamaşa edirdim. O, məsələnin nə yerdə olduğunu öyrənəndən sonra üzünü mənə tutub dedi:

*- Gəncəli balası, nə oxuya bilirsən?*

Mən özüm də bilmədən - "Koroğlunun ariyasını", dedim.

Ustad gülümsündü.

*- Bala konservatoriyanı bitirənlər Koroğlunun ariyasını oxuya bilmirlər, sənə ariya oxumaq hələ çox tezdir. Bəlkə bir xalq mahnısı oxuyasan?*

*-"Evləri var xanə-xanə" oxuyummu?*

*-Oxu gülüm dedi ("gülüm" ifadəsi Bülbülün müraciət forması idi).*

Mən böyük həvəs və həyacanla oxudum, hamı susub durdu və professorun nə deyəcəyinə qulaq kəsildi. Əlbəttə, ən çox həyəcan keçirən isə mən idim.

Professor üzünü Əşrəf müəllimə tutaraq:

*-Onda təbii talant var, ancaq musiqi təhsili yoxdur. Mütləq oxumalıdır. Mən məmmuniyyətlə onu öz sinfimə qəbul edərəm - dedi.*

Əşrəf müəllim:

*-Heyif ki, nə az, nə də çox düz altı ay gecikib.*

Professor dedi:

*-Bu asan məsələdir. Gəlin biz onu hazırlıq kursuna götürək, oxusun. Sentyabrda qəbul edək konservatoriyanın birinci kursuna. Çünki bunu indi əldən buraxsaq, bir də allah bilir neçə ildən sonra gəlib çıxacaq.*

Belə də razılığa gəldilər. Həmin gecə qatara aldığım bilet cibimdə qaldı. Rəssamlıq məktəbi ilə vidalaşıb səhərisi günü müğənni Firudin Mehdiyevlə məşğul olmağa başladım. Yeni tədris ilində isə dünya şöhrətli müğənnimiz, görkəmli vokal ustası Bülbülün sinfində təhsil alan altı tələbəsindən biri də mən oldum".



***Bu illərdə Rauf Hacıyev "Biz Bakıdanıq" adlı caz-orkestr yaratmışdı. Burada Oqtay Ağayev, Natavan Şeyxova, Elmira Rəhimova ilə birlikdə artıq Müğbil Əhmədov da oxuyurdu. Xatırlatmaq istərdim ki, o illərdə Müğbil Əhmədov və onun sənət dostları "Biz Bakıdanıq" orkestri ilə keçmiş ittifaq üzrə yüzə qədər şəhərdə qastrol səfərlərində olmuşlar. O, Konservatoriyada oxuduğu zaman Ramiz Mustafayevin rəhbərlik etdiyi Azərbaycan Dövlət Tele-Radio Komitəsinin orkestrində solo-ifaçı kimi də çıxışlar edirdi. Məhz bu ildə Süleyman Ələsgərov onu Musiqili Komediya Teatrına dəvət edib. Bu zaman Lütfiyar İmanov Musiqili Komediya Teatrından Opera Teatrına keçmişdi. Musiqili Komediya Teatrında baş rolları oynayacaq vokalçı-tenor yox idi. Bu səbəbdən də o, Konservatoriyanı bitirməsə də teatrda işlə təmin edilib.***

Xalq artisti Müğbil Əhmədov ömrünün 45 ilini Musiqili Komediya Teatrına indiki Azərbaycan Dövlət Akademik Musiqili Teatrına həsr edib.

Onun bu teatrın səhnəsində ilk obrazı bəstəkar Hacı Xanməmmədovla dramaturq Məhərrəm Əlizadənin birgə qələmə aldıqları "Bir dəqiqə" operettasında Tuqay surəti olub. Müğbil Əhmədov məhz bu teatrın səhnəsində 45 illik səhnə fəaliyyəti müddətində 70-dən artıq müxtəlif səpgili, bitgin obrazlarda çıxışlar edib. Onun klassik operettalarda və klassik milli dramaturgiya əsasında yazılan musiqili komediyalarında oynadığı obrazları xüsusilə bu teatrın səhnəsində gənc aktyor məktəbinin yetişməsində, zəngin yaradıcılıq irsinin yaradılmasında əsas rol oynayıb. Üzeyir Hacıbəylinin "Məşədi İbad" və "Arşın mal alan"da Sərvər, Rüstəm bəy və Əsgər, Mirzə Fətəli Axundzadənin eyniadlı pyesi əsasında libretto müəllifi Şəmsi Bədəlbəyli, bəstəkarları isə Ramiz Mustafayev və Vasif Adıgözəlov olan "Hacı Qara"da Heydər bəy, Cəlil Məmmədquluzadənin eyniadlı pyesi əsasında libretto müəllifi Cənnət Səlimova, bəstəkarı isə Oqtay Kazımov olan "Danabaş kəndinin əhvalatları"da Məhəmmədhəsən əmi həmçinin Həsən Seyidbəyli və Tofiq Quliyevin "Qızıl axtaranlar"da Nadir, Məcid Şamxalov və Zakir Bağırovun "Qaynana"da Ayaz, Məhərrəm Əlizadə və Fikrət Əmirovun "Gözün aydın"da Alay, Sabit Rəhman və Süleyman Ələsgərovun "Ulduz"da Bəxtiyar, Şıxəli Qurbanov və Süleyman Ələsgərovun "Olmadı elə, oldu belə"də Arzu, "Özümüz bilərik"də Zəfər, "Milyonçunun dilənçi oğlu"da Yetim, "Sevindik qız axtarır"da Toğrul, Əliağa Kürçaylı və Vasif Adıgözəlovun "Nənəmin şahlıq quşu"da Cəsarət, "Boşanaq, evlənərik"də Çingiz, Əliağa Kürçaylı və Arif Məlikovun "Ləpələr"də Sahib, Məhərrəm Əlizadə və Soltan Hacıbəyovun "Qızılgül"də Etibar kimi obrazları maraqlı və bitgin surətləri sırasına daxildir. Onun Levon Cubabiriya və Şota Miloravanın "Tiflis nəğməsi"də Zurab, Vladimir Dolidzenin "Keto və kote"də Kote, Georgi Xuqayev və A. Ovanovun "Sevgilimin anası"da Elbrus surətləri tərcümə əsərlərində oxuduğu, yaddaşlarda qalan ifa tərzi olaraq əsas partiyalarından hesab edilir.

### *Hər zaman yaradıcılıq meyyarlarına*

xüsusi önəm verən Müğbil Əhmədov aktyor və obraz haqqında söhbət düşərkən deyirdi: "Hamı tərəfindən qəbul olunan belə bir standart fikir mövcuddur ki, artist yaratdığı obrazın bütün xarakterik çalarlarını tamaşaçıya çatdırmalıdır.Bu, əlbəttə belədir.Amma mənim fikrimcə, aktyor istənilən rolu ifa edərkən, yaratdığı obrazdan daha çox öz şəxsiyyətini, tutumunu, ruhi aləmini tamaşaçı üçün aydınlaşdırır.

Və bunun nəticəsində, tamaşaçı ya aktyoru sevir, ya da səhnədə ona uzun illər sadəcə olaraq dözür.Üçüncü variant yoxdur!"

Xalq artisti Müğbil Əhmədov yaradıcılığından söz düşərkən tanınmış bəstəkar Vasif Adıgözəlov onun haqqında xatirələrində yazır: "Müğbil Əhmədovun Musiqili Komediya Teatrına gəlişindən sonra bizim bəstəkarlarımız mürəkkəb vokal partiyalara malik operettalar yazmaqdan daha çəkinmirdilər.Çünki bilirdilər ki, burada artıq belə çətinliklərlə bacaran sənətkar var. Odur ki, musiqi səhnəmizin inkişafının müəyyən mərhələsini Müğbil Əhmədovun adı ilə bağlamaq olar".

Bu gün Müğbil Əhmədovun səhnə fəaliyyətindən söz düşərkən mübağiləsiz demək olar ki, onun yaradıcılığında musiqili komediya tamaşaları üçün yazılan liberettolarda komik qəhrəman, yəni əsas personaj ancaq mənfi tip olaraq göstərilmirdi. Məhz bu obrazlar səhnədən tamaşaçını güldürdüyü, əyləndirdiyi kimi həm də düşündürürdü. Sözsüz ki, səhnə yaradıcılığında onun tipajlarının hər birində səs, vokal xüsusiyyətləri də nəzərə alınırdı. Aktyor hər zaman bu kimi xüsusiyyətlərlə hər bir obrazı tükənməz yumor hissinə malik xüsusiyyətləri ilə tamaşaçıya təqdim etməyə müvəffəq olurdu. Məhz buna görə də aktyorun səhnədə yaratdığı obrazları böyük və kiçikliyindən asılı olmayaraq köməkçi rollar statusunda olmurdu. Onun yaradıcılıq xüsusiyyətlərindən söhbət düşərkən qızı Nigar Əhmədova deyir: "Zamanında teatrın aparıcı aktyoruna, yeganə tenor olan bir vokalçıya 47 yaşında əməkdar artist adı verildi. Xalq artisti adına isə 69 yaşında layiq görüldü, vəfatından bir neçə il əvvəl. Bunun bir səbəbi onun yaradıcılığına göstərilən laqeyidlik idisə, digər səbəbi də özü idi. O, heç zaman heç nə üçün heç kimə ağız açmaz, boyun əyməzdi. İrad tutan zaman isə hər vaxt deyərdi ki, mənim adım Mobildir. Ərəbcə Müğbil - xoşbəxt deməkdir. Bəli, mən xoşbəxtəm. Xoşbəxtəm ki, nəslimnəcabətim var. Lakin sosial mənşəyimə görə başım çox bəlalar çəkib. Mənimlə həmişə gizli müharibə aparıblar, mənə zərbələr vurublar. Amma əsas odur ki, mən bunların heç birinə fikir verməmişəm".

Qeyd etmək lazımdır ki, sənətkar uzun illər müxtəlif təhsil ocaqlarında da pedaqoji fəaliyyət göstərib. Hətta o, sənət dostlarının yüzlərlə şarjını çəkib. Görkəmli sənətkar Müğbil Əhmədov Azərbaycan Dövlət Akademik Musiqili Teatrının səhnəsində tamaşaya qoyulan bəstəkar, Xalq artisti Səid Rüstəmovun və görkəmli yazıçı Məmməd Səid Ordubadinin librettosu əsasında hazırlanan "Beş manatlıq gəlin" və Cəlil Məmmədquluzadənin eyni adlı əsəri əsasında Cənnət Səlimovanın liberettosu əsasında bəstəkarı Oqtay Kazimi olan "Danabaş kəndinin əhvalatı" komediyalarının səhnə tərtibatı, geyim eskizlərinin müəllifi olaraq da maraqlı və orjinal səpgidə quruluşlarını verib. Bu gün xoşbəxt taleli sənətkar olan Müğbil Əhmədovun Azərbaycan radiosunun fondunda 600-dən çox lent yazısı var. O, "Qara daşlar", "Yeni il gecəsində", "Aktrisanın təbəssümü", "Üzeyir ömrü" və "Məkanın melodiyası" filmlərində də marqlı ifa tərzi ilə yaddaşlarda yaşayır.

Xalq artisti Müğbil Əhmədov 1978-ci ildə Əməkdar artist, 2000-ci ildə isə Xalq artisti fəxri adlarına layiq görülüb. O, 2006-cı il iyun ayının 3-də 75 yaşında vəfat edib və öz vəsiyyətinə uyğun olaraq Gəncə şəhərində yerləşən Səbizkar qəbirstanlığında dəfn edilib.

**Bu gün təəssüf hissi ilə qeyd etmək istəyirəm ki, Respublikanın Xalq artisti Müğbil Əhmədovun vəfatından 15 il ötməsinə baxmayaraq böyüyüb boya-başa çatdığı Gəncə şəhərində xatirəsinin əbədiləşdirilməsi məqsədilə doğulduğu ünvanında xatirə-barelyef lövhəsi belə yoxdur. Görəsən böyük bir sənət məktəbi keçən və sözün əsl mənasında özünün möhtəşəm sənət məktəbini yarada bilən bu kimi sənət fəadilərinin unudulmasının və ya unudulmağa məhkum olunmasının əsas səbəbi nədir?**

**Bəlkə də elə biz, özümüzük!**

**Anar Burcəliyev**
**Teatrşünas-tənqidçi**

# *Azərbaycanda cizgi filmlərinin çəkilmə tarixi: 50 illik "Tülkü Həccə gedir"*

**Azərbaycanda cizgi filmlərinin yaranması XX əsrin 30-cu illərinin əvvəllərinə təsadüf edir. 1933-cü ildə "Azərbaycanfilm" Moskvadan lazımi materialları alıb gətirmişdilər. Onlar həmin il "Lökbatan" və "Neft simfoniyası" (rej. B.Pumpyanski) sənədli filmlərini çəkərkən texniki animasiyadan istifadə etmişdilər. "Cat" təlimat filmində isə (rəs. Basov) animasiyadan bütünlüklə istifadə olunub.**

Adalet. az tanınmış kinomatoqrafiyaçılara istinadən xəbər verir ki, məhz bu film ekranlara buraxılandan sonra kinostudiyada bir qrup təşəbbüskar ilk dəfə cizgi filmi yaratmağı qərara aldı.

Film üçün mövzu Azərbaycan xalq nağıllarından götürüldü. Ssenarini A.Papov yazdı. "Abbasın bədbəxtliyi" adlanan bu ssenariyə gənc rejissor E.Dikaryov quruluş verdi. Rəsmləri rəssamlardan Q.Xalıqov, C.Zeynalov, M.Maqomayev və Ə.Mirzəyev çəkmişlər. Filmin operatoru Q.Yegiazarov idi.

İkinci Dünya Müharibəsinin başlanması ilə cizgi filminin çəkilişləri ilə bağlı işlər yarımçıq qaldı. Yalnız 1960-cı illərin sonlarında cizgi filmlərinin çəkilişi üçün şərait yaradıldı.

1968-ci ildə C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında cizgi filmləri sexi bərpa olundu. Nəhayət, 1969-cu il fevralın 28-də "Cırtdan" adlı xalq nağılının motivləri əsasında eyni adlı cizgi filmin istehsalı başa çatdırıldı. "Cırtdan" kinostudiyanın cizgi filmləri sexinin bərpasından sonra çəkilmiş birinci film oldu.

Film 1969-cu ildə ekranlara buraxıldı və uzun müddət kinoteatrlarımızın ekranlarından düşmədi. Beləliklə, "Cırtdan"ın istehsalı ilə Azərbaycanda cizgi filmləri tarixində ikinci dövr başlandı. 1970-ci illərdə kinostudiyanın cizgi filmləri şöbəsində 20-dən artıq cizgi filmi istehsal olunmuşdu. 1970-ci ildə multiplikatorlar kinonun bu növündə üç filmə ekran həyatı vermişdilər. Bunlardan ikisi "Ayı və siçan" (rej. N.Məmmədov) və "Şir və öküz" (rej. A.Axundov) mikrofilmlərdir.

Üçüncü - "Fitnə" (rej. A.Axundov) rəngli applikasiya filmidir. Bu film N.Gəncəvinin eyniadlı nağıl-novellasının motivləri əsasında çəkilmiş, təsvirin işlənməsi (rəssam E.Rzaquliyev) orta əsr Azərbaycan miniatür sənəti üslubunda həll olunmuşdur.



"Pıspısa xanım və Siçan bəy" (1974) və "Cücələrim" (1980) cizgi filmlərində (rej. A.Axundov) orijinal plastik həllin axtarışları aydın nəzərə çarpır.

### *50 yaşlı "Tülkü həccə gedir"...*

1971-ci ildə A.Şaiqin eyniadlı əsəri əsasında çəkilmiş "Tülkü həccə gedir" (rej. N.Məmədov, B. Əliyev) cizgi filmi istər üslub, istərsə də sənətkarlığa görə ən maraqlı işlərdəndir.

Burada hikmətli bir əhvalatdan-qocalıb əldən düşmüş tülkünün özünə yem tapması üçün fikirləşib necə yeni fənd işlətməsindən danışılır.

Filmdə belə bir fikir ön plana çəkilmişdir: düşmən çox məharətlə cildini dəyişir.

O gücü hesabına deyil, hiylə və ikiüzlülük sayəsində öz alçaq məqsədinə nail ola bilər.

Uşaq yazıçısı Abdulla Şaiqin eyniadlı nağılı əsasında ekranlaşdırılmış bu film applikasiya filmidir.

Film geniş tamaşaçı kütləsi üçün nəzərdə tutulmuşdur. Yəni, yaşından, təhsilindən, düyagörüşündən asılı olmayaraq hər kəs filmi izləyə, oradakı ibrətamiz hekayədən dərs götürə bilər. Əsərin müəllifi: Abdulla Şaiq (titrlərdə yoxdur), "Tülkü həccə gedir" ssenari müəllifi Eyvaz Borçalı, rejissorlar Nazim Məmmədov, Bəhmən Əliyev, operator: Aleksandr Milov, cizgi rəssamları: Bəhmən Əliyev, Nazim Məmmədov, Rauf Dadaşov, Hüseyn Cavid İsmayılov, Q.Lyubçenko, Tamilla Əsgərova, E.Əliyev, bəstəkar: Aqşin Əlizadə, bəs operatoru: Kamal Seyidov, redaktor Ədhəm Qulubəyov, filmin direktoru İbrahim Səfərov və başqalarının yaratdığı bir sənət əsəridir

**Bundan başqa filmin dilidə çox şirindir. Çünki filmi səsləndirənlər Hüseynağa Sadıqov - xoruz, Ağaxan Salmanov - tülkü, Firəngiz Şərifova - toyuq, Ş.Bağırova, S.Babayeva, A.Rzayev və başqaları səsləri ilə nəinki uşaqları, eləcə də böyükləri ovsunlaya biliriblər.**

**Əntiqə Rəşid**

**Yazının hazırlanmasında VİKİPEDİYA ya istinad edilib**



# "Dünyagörüşlərində böyük fərqlər var"

***Həmsöhbətimiz Gəncə şəhər 13 saylı tam orta məktəbinin rus dili müəlliməsi Könül Vəliyevadır.***

**-Könül xanım, adətən rus sektorunda, bu dillə bağlı sahələrdə MİQ ballarının aşağı olmasını qeyd edirlər. Amma sizin balınız kifayət qədər yaxşıdır.**

- Doğru vurğuladınız. Mən həmişə çalışıram ki, işlədiyim işin ən yaxşısını edim.

**-Hazırkı dövrdə cəmiyyətimizdə rus dilinə nə qədər ehtiyac var?**

- Hal-hazırda hansı sahədə işləməyimizdən asılı olmayaraq xarici dil (rus/ingilis) zəruridir.

**-Bəzən sosial şəbəkələrdə rus dili ilə bağlı etirazlar oxuyurq. Ki, rus dilində tədris azaldılsın və ya rus dili ümumiyyətlə sıradan çıxarılsın. Bəlkə rus dili sahəsiylə bağlı olanların cəmiyyətdə qıcıq doğuran hərəkətləri də bunda rol oynaya bilərmi?**

- Bu etirazların heç bir əsası yoxdur.

Qanunvericiliyə də nəzər salsaq görərik ki, bu haqda maddə verilib. Yenə də hər kəsin fikrinə hörmətlə yanaşmalıyıq.

**-İbtidai təhsili Moskvada almısınız. İndisə Azərbaycan məktəbində müəlliməsiniz. Oranın şagirdləriylə Gəncə şagirdləri arasında hansı fərqlər və ya oxşarlıqlar var?**

- Moskva və Azərbaycanı müqayisə etdikdə böyük çatışmazlıqlar üzə çıxır. Bu çatışmazlıqlar istər valideynlərin dünyagörüşü olsun, istər məktəblərin maddi texniki bazası olsun, istər pedaqoji kadrların hazırlanmasında olsun hər sahədə var.

**- Şagirdlərdə əvvəllər olduğu kimi bu dilin dərslərinə maraq var? Və ya maraq oyatmaq üçün nələr edirsiniz?**

- Bəli, şagirdlərdə dil öyrənməyə həvəs var. Çalışıram ki, dərslərim darıxdırıcı keçməsin, əlimdə olan resurslarsdan istifadə edərək əyləncəli dərs qurmağa üstünlük verirəm.

**-Rus dilini mükəmməl bilənlərə düzü bir qədər qibtə etmişəm. Sırf dahi şairlərin poeziyasını orjinaldan oxuya bildiklərinə görə. Heyf ki, bu həzdən məhrumam. Siz necə, bu dilin dərinliyini bilməyinizə görə bu zövqləri yaşayırsınız?**

- Bəli, dil bilməyin üstünlüyü çoxdur. Rahatlıqla xarici mənbələrdən istifadə edə bilirəm.Istirahətə getdiyim zaman rahatlıqla fikrimi ifadə edə bilirəm.

Ən əsası bu mükəmməllikdən istifadə edərək işimi keyfiyyətli qururam.

**Söhbətləşdi:**
**Emin Piri**

# 6 ay ailəli olan, sinir ağrılarından əziyyət çəkən, maddi problemlərlə üzləşən xalq artistinin dəbdəbəli villası



**Verlişlərin birində həyat yoldaşı ilə bağlı açıqlamalar verən Xalq artisti Könül artisti hazırda onunla birlikdə yaşamadığını deyib.**

"Bir yerdə yaşamırıq, ayrılmışıq. Onun barəsində deyə bilərəm ki, çox yaxşı, ləyaqətli oğlandır. Özüm ona demişəm ki, get həyatını qur, yaşa", - deyə Könül Xasıyeva qeyd edib. Xalq artisti eyni zamanda bildirib ki, həyat yoldaşı onu xəstələnməzdən əvvəl tərk edib. "Onunla yollarımız ayrılanda mən hələ xəstələnməmişdim. Xəstələnsəydim, o, məni qoyub getməzdi. Hər dəfə balası Kazımla maraqlanır. Kazım da onu çox sevir, onunla nəfəs alır. Həyat hər kəsə bir cür nəsib olur. Biz onunla birlikdə cəmi 6 ay yaşadıq", - deyə Könül Xasıyeva bildirib.

Qeyd edək ki, başqa bir verlişdə xalq artisti Könül Xasıyeva sinir ağrılarından, oğlu Kazım isə Turetto sindromundan əziyyət çəkdiyini söyləmişdi. "Mənim və övladımın xəstəliyi sağalan xəstəlik deyil. Amma həkimlər deyirlər ki, oğlum Kazımın xəstəliyi 18 yaşından sonra qismən sağala da, olduğu kimi qala da bilər. Səhhətimdə problem yaranmamışdan əvvəl fikirləşirdim ki, konsert verim. İndi vəziyyətim yaxşı deyil, özümə güvənim yoxdur. Maddi problemlər məni çox sıxır. İndi əsas problemim budur.."

Xasıyeva dəbdəbəli evini nümayiş etdirib. Adalet.az xəbər verir ki, muğam ifaçısı oğlu Kazımın şəkillərini evinin müxtəlif yerlərində çəkərək yayımlayıb.

**İfaçı bildirib ki, övladının ad günüdür. O, paylaşıma "Canım övladım, hər zaman sağlam və evində ol. Bir gün gəlsin ki, tam sağlamlığına qovuşasan. Tanrı bütün balaları qorusun, xəstə olanlara şəfa versin" deyə, yazıb.**

**Əntiqə**

**"Şazi" MMC ilə 30 sentyabr 2009 cu il tarixində Abbasov Aydın Rəfail oğlu arasında A.M.Şərifzadə küçəsi, ev 196, mənzil 502-nin alqı-satqısı barədə müqavilə itdiyi üçün etibarsız sayılır.**

H.Əlizadə, **Asya Zülfüqarqızı və Aysu Quliyeva İlahə xanıma, Mərziyyə xanıma, Cəmil bəyə, Nizami bəyə** əzizləri **Nigar xanımın** vaxtsız vəfatından kədərləndiklərini bildirir, dərin hüznlə başsağlığı verirlər.

Təsisçi və baş məsləhətçi:
Aqil ABBAS

Baş redaktor:
İradə TUNCAY

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.
kod: 200112 h\h VÖEN 9900003611
Müxbir hesabı: AZ37NABZ01350100000000001944
S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N:
AZ42AIIB38070019441100451111 VÖEN: 1300456161
İndeks:0107 Qeydiyyat nömrəsi 100

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.
Telefon: 538-05-50, 538-51-31. 434-55-98
Faks: 539-80-26
adaletqezeti@rambler.ru
adaletqezeti@mail.ru, adaletqezeti@box.az

Tiraj: 1500
Sifariş: 127
Çapa imzalanmışdır: 06.10.2021